6 may 2022 №33-34 (1907)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azad edilmiş hər rayonda kəndlərin bərpası ilə bağlı işlərə start verilib

Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar.

Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirilir. Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər. Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq – təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf.

Prezident İlham Əliyev bu sözləri mayın 4-də Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyevi videoformatda qəbul edərkən deyib.

Dövlət başçısı diqqətə çatdırıb ki, işğaldan azad edilmiş ərazilərdə tarixi-dini abidələrin bərpasına da başlanılıb. Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Zəngilan şəhər məscidi də faktiki olaraq yenidən qurulur: "Çünki bu məsciddən cəmi bir divar qalmışdı. Yəni, Zəngilanda mövcud olan acı mənzərə azad edilmiş bütün başqa torpaqlarda da mövcuddur...".

Prezident vurğulayıb ki, qarşıda duran başlıca vəzifə keçmiş məcburi köçkünlərin azad edilmiş torpaqlara tezliklə qayıtması ilə bağlıdır. Burada da dövlət nə mümkünsə edir, bütün güclər səfərbər olunub. Keçən il və bu il bu məqsədlər üçün hər il üzrə 2,2 milyard manat olmaqla 4,4 milyard vəsait ayrılıb. Bu il iqtisadi inkişafımız, gəlirlərimiz də artıb. Ona görə azad edilmiş torpaqların bərpası üçün əlavə vəsait ayırmalıyıq. Hökumətə bu məsələ ilə bağlı göstəriş verilib.

Dövlət başçısı qeyd edib ki, azad edilmiş hər bir rayonda kəndlərin bərpası ilə bağlı işlərə artıq start verilib və biz kəndləri də planlı şəkildə bərpa edəcəyik: "Biz bu prosesi də mərhələlərə böldük. Birinci mərhələdə hansı kəndlər qurulacaq, ikinci mərhələdə və sair. Əlbəttə, kəndlərin qurulması da planlı şəkildə aparılmalıdır. Yəni, kortəbii yox, sistemli şəkildə. Ona görə hər bir yeni yaradılacaq, bərpa ediləcək kəndin baş planı olmalıdır və baş planlar hazırda hazırlanır. Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır... Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq...".

## Mədəniyyət nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin ABŞ-a səfəri

Xəbər verildiyi kimi, mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti ABŞ-a səfərə gedib. Nümayəndə heyətinə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi, nazirliyin bir sıra struktur bölmələrinin rəhbərləri daxildir. 2-3 may tarixlərində Vaşinqtonda bir sıra görüşlər, tədbirlər keçirilib. Mayın 4-də səfər Nyu-York şəhərində davam edib.

davamı səh. 2-də

## Ankarada Əhməd Cavadın abidəsi ucaldılıb




Mayın 5-də Azərbaycanın istiqlal şairi Əhməd Cavadın anadan olmasının 130 illiyi ilə əlaqədar Ankarada anım mərasimi keçirilib.

Ankaranın Etimesqut rayonundakı Türk Tarixi Muzeyində baş tutan tədbirdə Etimesqut Bələdiyyəsinin başqanı Ənvər Dəmirəl, Azərbaycanın Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov, Milli Məclisin deputatı Əziz Ələkbərli çıxış ediblər.

Çıxışlarda Əhməd Cavadın 104 il öncə Azərbaycanın müstəqilliyinin qazanılmasında ən mübariz aydınlardan biri olduğu vurğulanıb, onun Türk dünyasının ortaq dəyəri olaraq göstərdiyi xidmətlərdən bəhs edilib.

Mərasimdə rəsmi şəxslər, ictimaiyyət nümayəndələri, Əhməd Cavadın oğlu Yılmaz Axundzadənin nəvəsi Mehinbanu Quliyeva və atası Nicat Quliyev də iştirak ediblər.

Sonra Türk Tarixi Muzeyinin ərazisindəki parkda Əhməd Cavadın heykəlinin açılışı olub. Parkda Türk dünyasının inkişafında önəmli xidmətləri olan bir çox tarixi şəxsiyyətlərin abidələri və kompozisiyaları arasında Əhməd Cavadın da əzəmətli heykəli yer alıb.

# Vaşinqton "Xarıbülbülün səsi"ni eşitdi

## ABŞ paytaxtında Qarabağ ünvanlı xeyriyyə konserti

Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycanın ABŞ-dakı Səfirliyi və ABŞ-Azərbaycan Ticarət Palatasının təşkilatçılığı ilə mayın 3-də Vaşinqton şəhərində "Xarıbülbülün səsi" ("The Voice of Orchid") adlı xeyriyyə konserti keçirilib.




Vaşinqtondakı məşhur Kennedi Mərkəzində təşkil olunan tədbirə ABŞ-ın Marşal İrsi İnstitutu da dəstək verib. Qeyd edək ki, xeyriyyə konserti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsinə kömək məqsədilə təşkil edilib. Konsertdən əldə olunan vəsait Marşal İrsi İnstitutu tərəfindən işğaldan azad olunmuş ərazilərə minaaxtaran itlərin göndərilməsi üçün sərf olunacaq.

Konsertdə tamaşaçı qismində ABŞ ictimai-siyasi dairələrinin təmsilçiləri, konqres üzvləri, səfirlər, beyin mərkəzlərinin nümayəndələri, Azərbaycan icmasının üzvləri və çoxsaylı amerikalı iştirak edib.

Konsertdən əvvəl Azərbaycanın mədəniyyət naziri Anar Kərimov, ölkəmizin ABŞ-dakı səfiri Xəzər İbrahim, ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov, Marşal İrsi İnstitutunun icraçı direktoru Elis Beker çıxış ediblər. Nazir Anar Kərimov Azərbaycan musiqisi barədə tamaşaçılara məlumat verib, Vaşinqtonun Kennedi Mərkəzində belə bir tədbirin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra Əməkdar artist, dirijor Fuad İbrahimovun idarə etdiyi Bakı Kamera Orkestrinin iştirakı ilə konsert proqramı təqdim olunub. Konsertdə Xalq artistləri – müğənnilər Nəzakət Teymurova, Briliant Dadaşova, qarmon ifaçısı Ənvər Sadıqov, tarzən Elşən Mənsurov, Əməkdar artistlər – müğənni Abbas Bağırov, tarzən Əliağa Sədiyev, nağara ifaçısı Kamran Kərimov və digər sənətçilərimiz Azərbaycan musiqisindən seçmə nümunələr ifa ediblər.







## "Poladın izi ilə..."




Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" studiyasında "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən sənədli filmlərin çəkilişi davam etdirilir. Silsilənin növbəti ekran əsəri şəhid Milli Qəhrəman, general-mayor Polad Həşimova (1975-2020) həsr olunan "Poladın izi ilə" sənədli filmidir.

Mayın 4-də Nizami Kino Mərkəzində filmin təqdimat mərasimi keçirildi. Tədbirdə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcı, digər rəsmilər, Milli Qəhrəmanın ailə üzvləri, mədəniyyət xadimləri və qazilər iştirak edirdilər.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxışında qeyd etdi ki, filmin əsas məqsədi özümüzü tanımaqdan ibarətdir: "Biz ölkə olaraq uzun müddət imperiyanın tərkibində yaşamışıq. Bu dövrdə tariximizi bizə unutdurmaq istəyiblər. Ancaq buna baxmayaraq biz özümüz-özümüzə qayıtdıq. Milli yaddaşın geri qaytarılması, təbii ki, Vətən oğullarının qəhrəmanlığı sayəsində gerçəkləşdi. Tarix həmişə böyük millətlər tərəfindən yazılıb. Həmin millətlərin hər zaman güclü ordusu olub. Güclü ordusu olan millət tarixdə iz buraxıb. Biz tarixi yaddaşımızı 2020-ci ildə yenidən aşkar formada kəşf elədik. Bugünkü filmin qəhrəmanı Ordumuzun ən cəsur nümayəndələrindəndir. Biz bu ekran əsərini yalnız Polad Həşimova deyil, onun simasında bütün qəhrəman Vətən oğullarına ithaf olunan film hesab edirik...".

davamı səh. 2-də

## Xalçaçı gününün "Düşüncələr"i

5 may Azərbaycanda Xalçaçı günüdür. Prezident İlham Əliyev 2016-cı il mayın 5-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında sərəncam imzalayıb. Dövlət başçısının 25 noyabr 2016-cı il tarixli sərəncamı ilə 5 may "Xalçaçı günü" peşə bayramı kimi təsis edilib.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova tədbiri açaraq əlamətdar gün münasibətilə xalçaçılara təbriklərini çatdırdı. Bildirdi ki, Prezidentin Xalçaçı gününün təsis olunması və bu sahənin inkişafı ilə bağlı sərəncamları dövlətimiz tərəfindən xalça sənətinin, toxuculuğun inkişafına göstərilən diqqətin bariz nümunəsidir. Dövlətin qayğısı, həmçinin Birinci vitse-prezident Mehriban Əliyevanın bu istiqamətdə göstərdiyi səylər nəticəsində 2010-cu ilin 16 noyabr tarixində xalça sənətimiz UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

davamı səh. 2-də




## Bakı baharının caz havası

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə aprelin 29-dan mayın 4-dək Beynəlxalq Caz Günü (30 aprel) münasibətilə silsilə konsertlər, caz musiqisi mövzusunda konfrans keçirildi.

2012-ci ildə UNESCO-nun sülhməramlı səfiri, dünya şöhrətli caz pianoçusu Hörbi Henkokun təşəbbüsü ilə qurum tərəfindən təsis edilən bu gün cazsevər ölkələrdə rəngarəng konsert proqramları ilə yadda qalır. Azərbaycan da caz sənətinin inkişaf etdiyi, özünəməxsus ənənələri olan ölkələrdəndir. Paytaxtımız 2005-ci ildən ənənəvi beynəlxalq caz festivalına da ev sahibliyi edir.

Silsilənin açılış konserti Beynəlxalq Muğam Mərkəzində (BMM) gerçəkləşdi. Əməkdar mədəniyyət işçisi Rahib Azərinin aparıcılığı ilə başlayan "Bakı – şəhərim mənim" adlı konsert proqramında "Baku Brass Big Band" qrupunun ifaları təqdim olundu. Qrupun bədii rəhbəri və baş dirijoru, Əməkdar incəsənət xadimi Əlibala Rzayevdir. Azərbaycan Dövlət Nəfəsli Alətlər Orkestrinin nəzdində yaradılan kollektivin təqdim etdiyi proqram böyük coşqu ilə qarşılandı.

Rahib Azəri caz musiqisinin inkişafı, Bakıda təşəkkül tapması, şəhərin caz ənənələri, Pərviz Rüstəmbəyov, Niyazi, Tofiq Quliyev, Vaqif Mustafazadə və Rafiq Babayevin bu sahədə xidmətlərini yada saldı.



Sonra orkestrin ifasında bir-birindən maraqlı kompozisiyalar təqdim olundu. Vasif Adıgözəlovun "Gözəl Bakı", Əlibala Rzayevin "Bahar balladası", Qara Qarayevin "Neftçilər marşı", H.Henkokun "Chamilion", A.Piazollanın "Oblivion", P.Beltramın "Svey" və sonda yenə də Ə.Rzayevin "Zəfər sevinci" kompozisiyaları tamaşaçıların gur alqışları ilə qarşılandı.

davamı səh. 3-də

Milli Dram Teatrı "On ikinci gecə..." ilə Trabzona gedib



səh. 2

ABŞ Konqresi Kitabxanasına ölkəmizlə bağlı kitablar hədiyyə olunub

səh. 3



Musiqiçi soydaşımızın səkkiz il sonra Bakıda konserti

səh. 5

№33-34 (1907)
6 may 2022
www.medeniyyet.az

# Mədəniyyət nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin ABŞ-a səfəri

## Vaşinqtonda və Nyu-Yorkda görüşlər keçirilib



*əvvəli səh. 1-də*

Səfərin ikinci günü, mayın 3-də nazir Anar Kərimov Vaşinqtondakı Smitsonian İnstitutunun muzeylər və mədəniyyət katibinin müşaviri Kevin Qover və institutun nəzdindəki Folklor və Mədəni İrs Mərkəzinin direktoru vəzifəsini icra edən Riçard Kurinlə görüşüb.

Smitsonian İnstitutu (Smithsonian İnstitution) – ABŞ-da 20-dən çox muzey və qalereyanı birləşdirən elmi tədqiqat və tədris mərkəzidir. 1846-cı ildə ABŞ Konqresi tərəfindən təsis edilən Smitsonian İnstitutu muzeylər üzrə dövlət qurumu sayılır və hökumət, həmçinin özəl investorlar tərəfindən maliyyələşir. İnstitutun əhatə etdiyi muzeylərin əksəriyyəti Vaşinqtonda yerləşir.

Görüşdə ikitərəfli əlaqələrin qurulması, araşdırmalar və sərgilərin təşkili, eksponatların restavrasiyası mövzusunda söhbət aparılıb. Nazirə məlumat verilib ki, Smitsonian İnstitutu hər il birbirindən zəngin folklor festivalları təşkil edir. Azərbaycanın növbəti festivallarda iştirak etməsi təklif olunub.

Həmçinin institutda müxtəlif sahələr üzrə təcrübə proqramlarının keçirilməsi və bu proqramlara ölkəmizdən mütəxəssislərin qatılması imkanlarından bəhs olunub.

Görüş zamanı daha sıx əməkdaşlığa zəmin yaradacaq anlaşma memorandumunun imzalanması ilə bağlı razılığa gəlinib.

Sonda nümayəndə heyəti tərəfindən Smitsonian İnstitutuna və institut adından Azərbaycan tərəfinə tarix və mədəni irslə bağlı kitablar hədiyyə edilib.

***

Mədəniyyət naziri ABŞ Arxiv İdarəsinin rəhbəri vəzifəsini icra edən Debra Voll ilə görüşüb.

Görüş zamanı qarşılıqlı maraq kəsb edən mövzular müzakirə olunub. Həmçinin azərbaycanlı mütəxəssislərin yaxın gələcəkdə treninq proqramlarına qoşulması barədə razılıq əldə olunub. Mədəni irsin arxivləşdirilməsində, eləcə də arxiv sənədlərinin rəqəmsallaşdırılmasında Amerika təcrübəsindən faydalanmağın önəmindən bəhs olunub.



***

Anar Kərimovun rəsmi görüşlərinin daha biri ABŞ Dövlət Departamentində gerçəkləşib. ABŞ dövlət katibinin təhsil və mədəniyyət məsələləri üzrə köməkçisi Li Satterfildlə görüş zamanı ikitərəfli əməkdaşlıq müzakirə olunub.

Anar Kərimov ölkəmizin irəli sürdüyü "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal təşəbbüsü barədə danışıb. Həmçinin Azərbaycanda mədəni irsin qorunması ilə bağlı işlərdən söz açılıb. Görüş fikir mübadiləsi ilə davam edib.

***

Mədəniyyət naziri səfər zamanı Vaşinqton Tekstil Muzeyinə də baş çəkib. Eksponatlarla tanışlıq zamanı direktor köməkçisi Anna Kiss nazirə Azərbaycan dövlətinin muzeyə hədiyyə etdiyi xalça və tekstil nümunələri haqda da məlumat verib. Həmçinin nazirlik tərəfindən muzeyin fonduna Şirvan xalçası nümunəsi təqdim olunub.

***

Nazir Anar Kərimov ABŞ-a səfərin növbəti günü Nyu-York şəhərində yerləşən Metropoliten Muzeyində olub. Muzeyin direktoru Deniel Veys ilə görüş zamanı bir sıra mühüm məsələlər müzakirə edilib.

Metropoliten Muzeyinin Azərbaycan muzeyləri ilə təcrübə və metodologiya mübadiləsi, təlim proqramlarının keçirilməsi haqda fikir mübadiləsi aparılıb.

Sərgi və digər tədbirlərin keçirilməsi, həmçinin əməkdaşlığa dair anlaşma memorandumunun imzalanması ilə bağlı, əlaqələrin gələcək perspektivləri barədə danışıqlar aparılıb.

# Əhməd Cavadın 130 illiyi Qazaxıstanda qeyd olunub

Beynəlxalq Türk Akademiyası Qazaxıstanın Nur-Sultan şəhərinin yaxınlığındakı "ALJİR" memorial-muzey kompleksində "İstiqlal carçısı Əhməd Cavad – 130" adlı anım tədbiri keçirib.



"ALJİR" memorialı 1938-53-cü illərdə Qazaxıstanın Akmola (indiki Nur-Sultan) vilayətində repressiya qurbanlarının həyat yoldaşlarının saxlanıldığı həbs düşərgəsinin (rusca "Акмолинский лагерь жён изменников Родины") yerində yaradılıb.

İştirakçılar repressiya qurbanlarının xatirəsini ehtiramla yad edib, "Xatirə lövhəsi"nin önünə gül dəstələri düzüblər.

Sonra iştirakçılar muzeyin ekspozisiyaları ilə tanış olub, "ALJİR" düşərgəsində cəza çəkən azərbaycanlılarla bağlı Türk Akademiyası tərəfindən hazırlanmış tematik sərgiyə baxıblar. Onların arasında Əhməd Cavadın 1938-1945-ci illərdə Qazaxıstana sürgün olunmuş həyat yoldaşı Şükriyyə Axundzadəyə aid xüsusi ekspozisiya da yer alıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti D.Kıdıralı bildirib ki, Ə.Cavada həsr olunan mərasimin onun həyat yoldaşının iztirablı sürgün həyatı yaşadığı "ALJİR" memorial kompleksində keçirilməsi rəmzi xarakter daşıyır. Ə.Cavad ömrünü Azərbaycan xalqının istiqlalına həsr etmiş, bu yolda təqiblərə məruz qalmış, ömrünü fəda etmiş bir şəxsiyyətdir. Onun həyat yoldaşı Şükriyyə xanım isə Qazaxıstana sürgün edilib və 1938-1945-ci illərdə 8 il "ALJİR" düşərgəsində olub. Ə.Cavad təkcə Azərbaycan xalqına məxsus deyil, Mirzə Fətəli Axundzadə, Mehmet Akif Ersoy, Həsən bəy Zərdabi, Əhməd Baytursınlı, Mustafa Çokay kimi bütün Türk dünyasının dəyəridir. Ə.Cavadın əsərləri türkçülük şüurunun formalaşmasına böyük töhfə verib. Böyük şair təkcə Azərbaycanın istiqlaliyyətinin deyil, həm də Anadolu və Türküstan xalqlarının azadlığının carçısı olub.

Tədbirdə Qazaxıstan Dövlət Tarixi İnstitutunun direktoru Erkin Ebil, Azərbaycanın Qazaxıstandakı Səfirliyinin müşaviri Rövşən Kazımov, L.Qumilyov adına Avrasiya Milli Universiteti Türkologiya kafedrasının professoru, Qazaxıstan Milli Elmlər Akademiyasının müxbir üzvü Amantay Şarip və başqaları çıxış ediblər. Ə.Cavad haqqında sənədli filmdən parçalar nümayiş etdirilib.

Qeyd edək ki, Beynəlxalq Türk Akademiyası Əhməd Cavadın 130 illiyini 2022-ci il üçün əlamətdar tarixlər siyahısına daxil edib və bir sıra tədbirlər keçirməyi planlaşdırıb.

# "İşığın ecazkar əksi"

Mayın 4-də Xətai Sənət Mərkəzində rəssam Nazim Şamxorovun "İşığın ecazkar əksi" adlı sərgisi açılıb. Sərgi Azərbaycan Rəssamlar İttifaqı və "Bakı" Rəsm Qalereyasının dəstəyi ilə təşkil edilib.



Tədbirdə Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, "Bakı" Rəsm Qalereyasının direktoru Eldəniz Babayev, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov və müəllif Nazim Şamxorov çıxış ediblər. Diqqətə çatdırılıb ki, sərgidə 80-ə yaxın əsər nümayiş olunur. Rəssam əsərlərində Azərbaycanın füsunkar gözəlliklərini və milli memarlıq abidələrini ustalıqla təsvir edir.

Nazim Şamxorov 2001-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini, 2005-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirib. 2006-cı ildən C.Cabbarlı adına Dövlət Teatr Muzeyində bərpaçı-rəssam işləyir. Əsərləri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda, Xətai Sənət Mərkəzində və başqa kolleksiyalarda saxlanılır.

Sərgi mayın 8-dək davam edəcək.

# "Poladın izi ilə..."

## Şəhid generala həsr olunan sənədli filmin təqdimatı keçirildi

*əvvəli səh. 1-də*

Elnur Əliyev bildirdi ki, Mədəniyyət Nazirliyinin əsas məqsədlərindən biri irs və dəyərlərimizin tarixi davamlılığını təmin etməkdir: "Bizim çox zəngin mədəniyyətimiz var. Mədəniyyətin vacib ölçüsü Vətən sevgisidir. Bizim üçün adi gələn bir sıra dəyərlər çox yerdə yoxdur. Məsələn, Abbas Səhhətin məşhur "Vətən" şeirində Vətən və onun oğulları arasında bütün münasibətlər var. Şeirdə xüsusi diqqətimi cəlb edən bir misra var. Şair yazır ki, "Vətən əcdadımızın mədfənidir, Vətən övladımızın məskənidir". Yəni Vətən bizdən əvvəl əcdadlarımızın torpaqları olub və gələcəkdə də bizimdir. Bu misraları yazan mədəniyyət başqa mədəniyyətdir. Ona görə də biz fəxr edirik ki, belə bir mədəniyyətin sahibiyik".

Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcı vurğuladı ki, bu Vətən şəhidlərin uğrunda can verdiyi və bizə əmanət etdiyi torpaqdır: "Bu gün ölümsüz olan bir igidin, 30 illik həsrəti şəhadəti ilə azadlığa çevirən bir qəhrəmanın həyat hekayəsini izləyəcəyik. Polad Həşimovla bağlı bildiklərimizlə yanaşı, bilmədiklərimiz də var. Bu film vasitəsilə onları öyrənəcəyik. Polad Həşimovdan sonra Azərbaycanda Vətəni, müstəqilliyi qorumaq üçün minlərlə Polad doğulub. Bu gün filmi izləyənlər arasında Milli Qəhrəmanın anası Səmayə Həşimova da var. Mən Səmayə ananın əllərindən öpürəm. O, təkcə Azərbaycan qəhrəmanlarının anası deyil, bütün Türk dünyasının simvoludur...".

Filmin rejissoru və ssenari müəllifi Zamin Məmmədov Azərbaycanın igid oğullarından biri haqqında film ərsəyə gətirdiyi üçün qürur hissi keçirdiyini söylədi.

Polad Həşimovun anası Səmayə Həşimova filmə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirdi. Söylədi ki, Polad Həşimov öz şəhidliyi ilə Azərbaycan xalqının qələbə ruhunu oyadıb, başını uca edib.



Milli Qəhrəmanın həyat yoldaşı Ofeliya Salmanova qeyd etdi ki, Polad Həşimov Azərbaycanın səngərdə şəhid olan yeganə generalıdır. Bu fakt kifayət edir ki, biz Polad Həşimovun necə bir qəhrəman olduğunu dərk edək.

Çıxışlardan sonra "Poladın izi ilə" sənədli filmi nümayiş etdirildi.

2021-ci ildə lentə alınan filmin rejissoru və ssenari müəllifi Zamin Məmmədov, operatoru Fahir İmanquliyev, məsləhətçisi Vüqar Əsgərov, montaj edəni Sabir Əskərzadə, səs rejissoru Mehman Nadirov, prodüseri Nazim Hüseynovdur.

Filmin çəkilişləri Polad Həşimovun doğma yurdu Qəbələdə, yaşadığı Sumqayıtda, hərbi xidmət etdiyi və döyüşdüyü bölgələrdə aparılıb. Ekran işində şəhid generalla düşmənə qarşı birgə döyüşmüş səngər yoldaşları, ailə üzvləri xatirələrini bölüşürlər.

General-mayor Polad Həşimov 2020-ci il iyulun 14-də Ermənistan ordusunun Azərbaycanın Tovuz rayonu istiqamətində növbəti hərbi təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Dövlət başçısının 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə Polad Həşimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

**Nurəddin Məmmədli**

# Xalçaçı gününün "Düşüncələr"i

## Peşə bayramı yeni xalçanın kəsimi və təqdimatlarla qeyd edildi

*əvvəli səh. 1-də*

Şirin Məlikova bildirdi ki, Milli Xalça Muzeyi xalçaları qoruyub nümayiş etdirməklə bərabər, xalçaçılıq ənənələrini də davam etdirir, bu sənəti yeni nəslə çatdırmağa çalışır. Vurğulandı ki, bu gün muzeydə toxunan "Düşüncələr" adlı xalçanın qədim ənənələrə uyğun dəzgahdan kəsimi, naxışlı həsirin toxunması üzrə ustad dərsi və "Uçan xalça" marionet tamaşasının premyerası keçiriləcək. "Düşüncələr" xalçası 2021-ci ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi ilə əlaqədar Xalça Muzeyi və Heydər Əliyev Fondunun birgə təşkil etdiyi beynəlxalq xalça eskizi müsabiqəsinin qalibi olan rəssam Eldar İbadullayevin eskizi əsasında toxunub. Xalça muzeyin Ənənəvi texnologiya şöbəsinin toxucuları tərəfindən yeddi aya ərsəyə gətirilib. Texniki eskizin hazırlanması, rənglərin seçimi və digər hazırlıq işlərində muzeyin baş rəssamı, Əməkdar rəssam Taryer Bəşirov başda olmaqla xalçaçı rəssamlar da iştirak ediblər. Xalçada 40 rəng və onların çalarlarından istifadə olunub.

Təbrik nitqi ilə çıxış edən Xalq rəssamı Eldar Mikayılzadə dedi: "Xalça varsa, muğam varsa, qəzəl varsa, demək ki, xalqımızın tarixi var, mədəni irsi var, kökləri var". Əməkdar rəssam Məmmədhüseyn Hüseynov, Xalq rəssamı, Rəssamlar İttifaqının Dekorativ-tətbiqi sənət bölməsinin müdiri Aydın Rəcəbov, Taryer Bəşirov və Eldar İbadullayev çıxış edərək əlamətdar gün münasibətilə təbriklərini çatdırdılar. Çıxışlardan sonra "Düşüncələr" xalçasının dəzgahdan kəsimi oldu. Adətə görə, xalça kəsilib yerə səriləndən sonra üzərinə ilk olaraq şirniyyat tökülərmiş. Elə bu ənənəyə uyğun olaraq, xalçanın toxucu xanımları xonçalarda bəzədilmiş əlvan rəngli konfetləri xalça üzərinə səpələdilər və bu ənənə də ən çox muzeydə "Uçan xalça" marionet tamaşasını izləmək üçün növbə gözləyən uşaqlarda maraq yaratdı...




Xalça kəsildikdən sonra naxışlı həsirin toxunması üzrə ustad dərsi keçirildi. Bu qədim sənət növü ilə məşğul olan sənətkar, Astaranın Kakalos kənd sakini Rüfət Rzayev muzeyin dəvəti ilə apardığı ustad dərsində naxışlı həsirin sirlərindən söz açdı. Böyük həvəslə öz işini təqdim edən sənətkar həsirdən düzəldilmiş müxtəlif çantalar, şlyapalar, örtük və süfrələri nümayiş etdirdi. Usta dedi ki, tarixi qədim dövrə gedib çıxan həsirlər Azərbaycan xalçalarının "əcdadı" sayılır. Onlar əsrlər boyu əvəzsiz məişət əşyası olmaqla yanaşı, həm də özünün nəfis, zərif naxışları ilə bədii əhəmiyyət kəsb edib.

Xalçaçı günü "Şuşa İli" münasibətilə muzeyin Uşaq şöbəsi tərəfindən səhnələşdirilən "Uçan xalça" marionet tamaşasının nümayişi ilə yekunlaşdı. Tamaşa uşaqlar arasında Azərbaycan xalça sənətinin təbliği və onların milli mədəni irsimizə sevgi ruhunda tərbiyəsi məqsədi daşıyır. Tamaşada Nabat nənə nəvəsi Ömərlə sehrli xalça dünyasına səyahət edərək vətənimizin müxtəlif bölgələrinin xalça naxışları ilə tanış olurlar. "Uçan xalça" nağılı əsasında hazırlanan ssenari, səhnə tərtibatı, həmçinin marionet kuklalar muzey əməkdaşları və muzeyin nəzdində fəaliyyət göstərən Uşaq birliyinin üzvləri tərəfindən ərsəyə gətirilib.

**Lalə Azəri**

# Milli Dram Teatrı "On ikinci gecə..." ilə Trabzona gedib

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı mayın 5-dən 9-dək Türkiyənin Trabzon şəhərində 22-ci Beynəlxalq Qara dəniz Teatr Festivalında iştirak edəcək. Kollektiv festivala V.Şekspirin "On ikinci gecə, yaxud hər nə istəsəniz" tamaşası ilə gedib.

22-ci Beynəlxalq Qara dəniz Teatr Festivalı 5-20 may tarixində keçiriləcək. Akademik Milli Dram Teatrı səhnə əsərini iki dəfə – mayın 7-8-də Trabzon Dövlət Teatrının Haluk Ongan səhnəsində nümayiş etdirəcək.

2019-cu ildə səhnələşdirilən "On ikinci gecə, yaxud hər nə istəsəniz" tamaşasının quruluşçu rejissoru və rəssamı Xalq artisti Azər Paşa Nemətov, geyim rəssamı Olqa Şabanova, rəqslərin quruluşçusu Lalə Hacıyeva və Günay Mikayılovadır.

# Səməd Vurğunun evində Vaqifə salam

"Şuşa İli" ilə bağlı tədbirlər çərçivəsində Səməd Vurğunun Ev-Muzeyi və "AYTAM" Uşaq və Gənclərin Mədəni Maarifləndirilməsi İctimai Birliyinin təşkilatçılığı ilə "Salam, Molla Pənah Vaqif" adlı tədbir keçirilib.

Muzeyin direktoru Nüşabə Babayeva-Vəkilova Şuşa şəhərinin xalqımızın tarixi-mədəni irsində müstəsna yerindən bəhs edib.

İctimai birliyin sədri Aygün Zamanova Səməd Vurğunun ocağında belə bir tədbirin keçirilməsinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Molla Pənah Vaqifi geniş mənada Azərbaycana tanıdan Səməd Vurğunun "Vaqif" dramı olub.

Dövlət İdarəçilik Akademiyasının tələbələri Səməd Vurğunun "Vaqif" dramından parça nümayiş etdiriblər və şairlərimizin Qarabağla bağlı şeirlərini söyləyiblər.

Sonda tədbir iştirakçılarına muzey adından təşəkkürnamələr təqdim edilib.

# Holokost Memorial Muzeyində azərbaycanlıların soyqırımından söz açılıb

Mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Vaşinqtondakı Holokost Memorial Muzeyini ziyarət edib.

Muzeylə tanışlıqdan sonra nazirin ABŞ Holokost Memorial Şurasının sədri Stüart Eysenstatla görüşü olub.

Söhbət zamanı Azərbaycanın multikultural dəyərlərindən bəhs edən Anar Kərimov əsrlər boyu ölkəmizdə yaşayan yəhudi icması haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, 1918-ci ildə erməni silahlı dəstələrinin Azərbaycanın müxtəlif yerlərində törətdiyi soyqırımının qurbanları arasında yəhudilər də olub.



Nazir bildirib ki, Azərbaycanın Quba şəhərində yaradılan Soyqırımı Memorial Kompleksində azərbaycanlılarla bərabər bu qırğınların qurbanı olmuş yəhudilərin də xatirəsi hər zaman sayğı ilə yad edilir. Qeyd olunub ki, yəhudi xalqının üzləşdiyi müsibət – Holokost haqqında Azərbaycanda məktəb dərsliklərində məlumatlar yer alıb. Azərbaycan antisemitizmlə mübarizəyə həsr olunmuş müxtəlif səpkili tədbirlərə ev sahibliyi edir.

Görüş zamanı Holokost Memorial Muzeyinin yəhudilərə qarşı törədilmiş soyqırımının gələcək nəsillərə çatdırılmasında mühüm rolundan bəhs olunub. Həmçinin bu sahədə Quba Soyqırımı Memorial Kompleksi ilə gələcək əməkdaşlığın, arxiv materiallarının üzə çıxarılması və təbliğinin, məlumat mübadiləsinin vacibliyi vurğulanıb.

# Vaşinqtonda Azərbaycan mədəniyyəti gecəsi

Mədəniyyət naziri Anar Kərimov və nümayəndə heyəti mayın 2-də Vaşinqtonda həmvətənimiz – tanınmış caz ifaçısı, pianoçu Əminə Fiqarovanın rəhbərlik etdiyi musiqi qrupunun konsertində iştirak edib.



"Azərbaycan mədəniyyəti gecəsi" adlı caz konserti ölkəmizin ABŞ-dakı səfirliyinin təşkilatçılığı və ABŞ-Azərbaycan Ticarət Palatasının dəstəyi ilə Vaşinqtonun tarixi binalarından olan Meridian Beynəlxalq Mərkəzində (Meridian International Center) keçirilib.

Gecəyə ABŞ siyasi-ictimai dairələrinin, diplomatik korpusun, beyin mərkəzlərinin nümayəndələri, Azərbaycan icmasının üzvləri və yerli sənətsevərlər də qatılıb.

Tədbiri giriş sözü ilə açan Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim zəngin mədəniyyətə malik ölkəmizdə musiqiyə verilən dəyərdən, milli musiqimizin qorunub saxlanılması ilə yanaşı, müasir və dünya musiqisi, o cümlədən caz musiqisinin ölkəmizdə geniş yayılmasından bəhs edib.

Mədəniyyət naziri Anar Kərimov dünya caz həftəsinə təsadüf edən tədbir kontekstində Azərbaycanda caz ənənələri, onun tarixi, xüsusilə də 1960-70-ci illərdən başlayaraq Bakının Qafqazın caz mərkəzinə çevrilməsi, Vaqif Mustafazadə kimi əvəzedilməz caz ifaçılarının yetişməsini vurğulayıb. Nazir çıxışında Qarabağın tarixən Azərbaycanın musiqi mərkəzi olması, bir sıra mötəbər musiqiçilərin məhz burada yetişməsini xüsusi qeyd edib.

Caz konsertində uzun illərdir ABŞ-da yaşayıb fəaliyyət göstərən Əminə Fiqarovanın rəhbərlik etdiyi caz qrupu Azərbaycan musiqisinin motivlərindən ilhamlanaraq improvizə edilmiş etno-caz janrında musiqilər ifa edib. Konsertdə Vaqif Mustafazadənin əsərləri üstünlük təşkil edib. Musiqiçilərin özünəməxsus tərzdə ifa etdiyi "Laçın" musiqi parçası isə konsert iştirakçıları tərəfindən xüsusilə bəyənilib və alqışlarla müşayiət olunub.

Konsertdən sonra qonaqlara Azərbaycan mətbəxinin ləziz təamları təqdim edilib.

# "Təsviri sənətə səyahət"

## Satış-sərgidə 45 rəssam və heykəltəraşın əsərləri yer alıb

Xəbər verildiyi kimi, 29-30 aprel tarixlərində Mədəniyyət Nazirliyi və "Four Seasons Hotel Baku"nun birgə təşkilatçılığı ilə "Təsviri sənətə səyahət" adlı satış-sərgi keçirilib.

Açılışda çıxış edən mədəniyyət naziri Anar Kərimov satış-sərginin təsviri sənətimiz və bu sahədə çalışan insanlar üçün əlamətdar hadisə olduğunu dedi: "İlk dəfə olaraq Mədəniyyət Nazirliyi özəl sektoru cəlb edərək belə bir sərgi-yarmarka təşkil edib. Bu işə tanınmış gənc rəssam və heykəltəraşlar da cəlb olunub. Pandemiya dövründə bu sahədə çalışan insanlar öz əsərlərini lazımınca təbliğ edə bilmədilər. Bu tədbirlə biz rəssamlıq sahəsində çalışanlara satış imkanları yaradırıq. Əminəm ki, təsviri sənətimizin təbliğinə yönələn layihə bundan sonra da uğurla davam etdiriləcək...".

Anar Kərimov dedi ki, layihənin məqsədi yaradıcı insanlara dəstək olmaq, onların əsərlərini geniş ictimaiyyətə, beynəlxalq aləmə, habelə Azərbaycanda fəaliyyət göstərən xarici diplomatik korpuslara tanıtmaqdır.

Sərgidə 45 rəssam və heykəltəraşın əsərləri yer alıb. Onların arasında 2016-cı ilin Aprel döyüşləri şəhidi, heykəltəraş Samir Kaçayevin də əsərləri var.



Nazir onu da diqqətə çatdırdı ki, satış-sərgidən əldə olunan vəsait rəssam və heykəltəraşlara çatdırılacaq: "Məqsədimiz bu sahədə çalışan insanlara dəstək olmaqdır. İnanırıq ki, belə layihələr Azərbaycanda yaradıcı sənayenin inkişafına töhfə olacaq. Dəvətimizi qəbul edib sərgiyə qatılan rəssamlara və təşkilatlara təşəkkürümüzü bildiririk".

Daha sonra Anar Kərimov tanınmış rəssamlar Altay Sadıqzadəyə rəssamlıq sənətinə töhfələrinə görə və Məlik Ağamalova 60 illik yubileyi münasibətilə nazirliyin fəxri diplomlarını təqdim etdi, onlara yaradıcılıq uğurları arzuladı.

Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov dedi ki, bu gün sənət bayramıdır. Sərgidə rəngkarlıq, heykəltəraşlıq, keramika, qobelen və digər nümunələrin satışı həyata keçirilir. Bu da təsviri və tətbiqi sənətin bütün sahələrinin əhatə olunması deməkdir.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış oldular. İlk satılan əsər Xalq rəssamı Arif Hüseynovun "Azərbaycan nağılları" silsiləsindən əsəri oldu.

**L.Azəri**

# ABŞ-ın beyin mərkəzlərinin nümayəndələri ilə görüş

Mədəniyyət naziri Anar Kərimovun Birləşmiş Ştatlara səfəri çərçivəsində mayın 3-də Vaşinqtonda ABŞ-ın aparıcı beyin mərkəzlərinin nümayəndələri və elm xadimləri ilə görüşü keçirilib.

Görüşə Birləşmiş Ştatların Azərbaycanda diplomatik xidmət göstərmiş sabiq səfirləri də qatılıblar.

Anar Kərimov otuz ilə yaxın sürmüş erməni işğalı dövründə Azərbaycanın mədəniyyət ocaqlarına dəymiş ziyandan, dağıdılmış tarixi və dini abidələrdən bəhs edib.

Tarixi Zəfərimizdən sonra Qarabağda aparılan yenidənqurma və bərpa işləri haqda ətraflı məlumat verilib, statistik göstəricilər nəzərə çatdırılıb. Nazir ölkəmiz tərəfindən irəli sürülən "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyasından da danışıb.

Fikir mübadiləsi və tərəfləri maraqlandıran məsələlərin müzakirəsi ilə davam edən görüşün iştirakçıları tərəfindən Qarabağın bərpası istiqamətində bir sıra təkliflər irəli sürülüb.

Görüşdə Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim də iştirak edib.

# Konqres Kitabxanasına ölkəmizlə bağlı kitablar hədiyyə olunub

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti mayın 1-də ABŞ-a səfərə gedib.




Səfərin ilk günü Anar Kərimov Vaşinqtonda yerləşən ABŞ Konqresi Kitabxanasının Yaxın Şərq şöbəsinin rəhbəri Coan Viks ilə görüşüb. Nümayəndə heyəti kitabxana ilə tanış olub.

Sonra ABŞ Konqresi Kitabxanasının Afrika və Orta Şərq ölkələri bölməsinin rəhbəri Lanisa Kiçinerlə görüş keçirilib. Bölməyə ölkəmizin tarixi və mədəni irsindən bəhs edən nəfis tərtibatlı kitablar hədiyyə olunub.

Nümayəndə heyətinə kitabxanadakı Azərbaycan guşəsi barədə ətraflı məlumat verilib. Kitabxanada çalışan həmvətənimiz Müjgan Nəzərova kitab kolleksiyası və kataloqlarla bağlı təqdimatla çıxış edib. Burada ölkəmizlə bağlı gerçəkləşən araşdırmalar barədə də informasiya təqdim olunub.

Geniş və maraqlı təqdimatlar üçün kitabxananın rəhbərliyinə və əməkdaşlarına təşəkkürünü bildirən nazir Anar Kərimov bundan sonra da sıx əməkdaşlığın davam etdiriləcəyini vurğulayıb.

Görüşlərdə Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim də iştirak edib.

# Mədəniyyət nazirinin birinci müavini yubilyar tarzəni təbrik edib

Mayın 4-də Mədəniyyət Nazirliyində görkəmli tarzən, bu günlərdə 75 yaşını qeyd edən Ramiz Quliyevlə görüş keçirilib.



Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev Xalq artisti, Dövlət Mükafatı laureatı, professor, "Şöhrət" və "Şərəf" ordenli Ramiz Quliyevi 75 illik yubileyi münasibətilə təbrik edərək ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb.

Ramiz Quliyev ona göstərilən diqqət və qayğıya görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib.

# Bakı baharının caz havası

## Beynəlxalq Caz Günü münasibətilə silsilə konsert və tədbirlər keçirilib





*əvvəli səh. 1-də*

Həmin gün Rəşid Behbudov adına Mahnı Teatrında "Cəngi" ansamblının konserti də caz bayramına xüsusi ovqat bəxş etdi. Xalq artisti Mircavad Cəfərovun rəhbərliyi ilə ansambl bir-birindən maraqlı nömrələr səsləndirdi. Musiqiçilər Azərbaycan bəstəkarlarının əsərlərini, muğam üstündə caz kompozisiyaları ifa etdilər. Xatırladaq ki, "Cəngi" qrupu əsasən xalq musiqisi ilə cazın sintezini təşkil edən kompozisiyalarla tamaşaçıların qarşısına çıxır.

Beynəlxalq Caz Gününün sədaları həmin gün axşam BMM-də daha bir konsertlə davam etdi. "H3 Collektive Presetens"in ifasında Amerika cazı, Şərqi Avropa və Afrika motivli nömrələr caz musiqisinin əsrarəngiz çalarlarını nümayiş etdirdi. Firudin Həmidov (trumpet), Afşin Əlizadə (piano, keyboards), Nicat Paşazadə (bas-gitara), Əli Nəsib (zərb alətləri), Nicat Məmmədov (fleyta), Camal Bayramlı (saksofon) və Nicat Məmmədli (keyboards) öz çıxışları ilə cazın gözəlliklərini, dərin və düşündürücü məqamlarını bütünlükdə tamaşaçılara aşılamağa çalışırdılar. Bütün ifalar alqışlarla mükafatlandırıldı.

Silsilənin daha bir konsert proqramı aprelin 30-da BMM-də təqdim olundu. Konsertdə ölkəmizin tanınmış caz ifaçıları və kollektivləri bir araya gəldilər. Konserti izləyənlər arasında mədəniyyət naziri Anar Kərimov, digər rəsmilər, mədəniyyət xadimləri, ziyalılar və gənclər var idi.

Konsertdən əvvəl Əməkdar mədəniyyət işçisi Rahib Azəri caz sənətinin Azərbaycanda inkişafı və konsertdə iştirak edən kollektivlərdən söz açdı.

Sonra səhnə tanınmış caz ifaçılarının ixtiyarına verildi. Xalq artistləri Cəmil Əmirov, Salman Qəmbərov, Əməkdar artist Ruslan Hüseynov, gənc caz qrupları və ifaçılar "H3 Collective", Ülviyyə Rəhimova, Nərmin Məmmədli, Nicat Aslanov, Firudin Həmidov, Afşin Əlizadə, Arslan Növrəsli bir-birini səhnədə əvəz etdi.

Onu da bildirək ki, həmin gün Xalq artisti Cəmil Əmirov 65 illik yubileyini elə səhnədə qeyd etdi. Konsert boyu maraqlı ifalar bir-birini əvəzlədikcə özünəməxsus caz traktovkaları Azərbaycan caz sənətinin müasir inkişafını əks etdirirdi. Konsertdə gənc musiqiçi Məhəmməd Allahverdiyevin "Qarabağ şikəstəsi" adlı caz gəzişmələri üzərində vokal partiyalar da maraqla qarşılandı. Gecənin möhtəşəm çıxışlarından biri də Xalq artisti Ənvər Sadıqovun "Qaytağı" ansamblının çıxışı oldu. Proqram Əməkdar artist, tanınmış zərb alətləri ifaçısı Tofiq Cabbarovun "Bakuba Band" qrupunun ifaları ilə yekunlaşdı.

Beynəlxalq caz günləri çərçivəsində "Azərbaycanda və qonşu bölgələrdə caz: ənənələr, problemlər və perspektivlər" mövzusunda onlayn beynəlxalq konfrans da təşkil edildi. Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin baş məsləhətçisi Turan Məmmədəliyevanın moderatorluğu ilə keçən konfransda Cəsur Xəlilov (Tacikistan), Natəvan Hüseynova (Niderland-Azərbaycan), Munara Korpotayeva (Qırğızıstan), Veronika Tormaxova (Ukrayna), Aybəniz Növrəsli (Azərbaycan), Fərizə Babayeva (Azərbaycan), Lalə Rzayeva (Azərbaycan) və Turan Məmmədəliyeva çıxış etdilər.

"Coffee & Jazz" kafedə keçirilən konfransda caz üzrə müəllim və tədqiqatçı, R.Qlier adına Kiyev Bələdiyyə Akademiyasının dosenti Veronika Tormaxova çıxış edərək Ukrayna cazı haqqında məlumat verdi. Jurnalist, caz tədqiqatçısı Natəvan Hüseynova caz ifaçılığında özünütənqidin olmaması ilə bağlı söz açdı. Tacikistandan olan cazmen, Düşənbədə keçirilən etno-caz festivalının art-direktoru Cəsur Xəlilov festival ənənələrindən və caz təhsilindən danışdı. Müasir eston cazına kiçik ekskursiya İrina Svenson (Estoniya) tərəfindən təqdim edildi.

Rusiyada keçirilən festivalların xüsusiyyətləri, festivalın uğuru və onun müvəffəqiyyətli olması üçün əsas prinsiplər haqqında İqor Butman Fondunun icraçı direktoru Roman Xristyuk bəhs etdi. Pianoçu və musiqi təşkilatçısı, Bişkekdə bir neçə festivalın art-meneceri Munara Korpotayeva bu sahədə təhsil problemlərinə, tənqidlərə diqqət ayrılmaması məsələlərinə nəzər saldı. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının müəllimi, musiqişünas Aybəniz Növrəsli ölkəmizdə caz ifaçılığı problemləri mövzusunda fikirlərini bölüşdü. Konfrans iştirakçılarının ortaq fikri bu oldu ki, ünsiyyət, əməkdaşlıq və mədəniyyətlərarası dialoq üçün geniş bir zəmin yaradılması məqsəd kimi qarşıya qoyulmalıdır.

Mayın 1-də "Coffee & Jazz"da musiqişünas Fərizə Babayevanın təqdimatında Rafiq Babayev: mövzu və variasiyalar" adlı seminar-diskussiya gerçəkləşdi. Vurğulandı ki, ötən əsrin ortalarında Azərbaycan caz sənətinin yeni parlaq səhifələrini yazanlar sırasında Xalq artisti Rafiq Babayevin də adı var. 1967-ci ildə Estoniyanın Tallinn şəhərində keçirilən beynəlxalq caz festivalında R.Babayevin ansamblı laureat adına layiq görülüb. Onun "Bayatı-kürd" ladında ifa etdiyi kompozisiya xüsusi qeyd edilir. Həmin illərdə sənətçi ictimai işlərlə də məşğul olur, müxtəlif müsabiqələr, baxış və festivallar təşkil edir. Onun yaradıcılıq fəaliyyəti pedaqoji işlə, gənc instrumental musiqiçi və vokalçılarla həmişə bağlı olub.

Seminarda müasir dövrdə R.Babayev ənənələrinin yaşadılması mövzusunda fikir mübadiləsi aparılıb.

Mayın 3-də layihə çərçivəsində Beynəlxalq Muğam Mərkəzində Ruslan Ağababayevin caz triosu çıxış edib. Konsertin dəvətli qonağı tarzən, Əməkdar artist Şəhriyar İmanov olub. Konsertdə ənənəvi, etno-caz, latino üslubunda təqdim edilən ifalar alqışlarla qarşılanıb.

Bakıda caz günlərinin son akkordlarını "Qaya" ansamblı vurdu. Mayın 4-də BMM-də gerçəkləşən musiqi axşamında aparıcı Rahib Azəri böyük coşqu dolu konsertlərə görə Mədəniyyət Nazirliyinə, layihənin rəhbəri Turan Məmmədəliyevaya və zallarda anşlaq yaradan tamaşaçılara təşəkkürünü bildirdi. O, "Qaya" ansamblının tarixi və indiki fəaliyyəti haqqında da məlumat verdi.

Sonra ansamblın gənc üzvləri səhnəyə çıxaraq həm retro, həm də müasir repertuardan musiqi nömrələri təqdim etdilər. Beləliklə, daha bir caz bayramı xoş təəssüratlarla tarixə qovuşdu.

**Lalə**

# Zəfər salnaməsi yazan qəhrəmanlar

Gəncə RMİ Gəncə şəhər Mərkəzi Kitabxanasının oxu zalında Vətən müharibəsinin şəhid baş leytenantı Elgün Xıdırovun xatirəsinə həsr olunan "Zəfər salnaməsinin qəhrəmanları – şəhidlər" adlı anım mərasimi keçirilib. Tədbirdə çıxış edənlər Elgün Xıdırovun vətənpərvərliyindən, döyüşlərdə göstərdiyi qəhrəmanlıqdan söz açıblar.



Xaçmaz RMİ-nin rəisi Vüsal Hüseynov Vətən müharibəsi şəhidi Vahid Baxşiyevin ailəsini ziyarət edib.

Bərdə RMİ Bərdə rayon MKS-nin 2 nömrəli şəhər kitabxana filialının əməkdaşları Vətən müharibəsi şəhidi Asif Abışovun ailəsinə baş çəkiblər.

Şəki RMİ Zaqatala rayon Heydər Əliyev Mərkəzində gənc həvəskar rəssam Rəşad Şabanovun portret janrında yaratdığı əsərlərdən ibarət sərgi açılıb. Sərgidə ərazi bütövlüyümüz uğrunda canlarından keçən zaqatalalı 40 şəhidin portretləri nümayiş etdirilib.



Sumqayıt RMİ-nin Qubadlı rayon nümayəndəliyi tərəfindən Vətən müharibəsi şəhidi Məhəmmədəli Həsənzadəyə həsr olunan tədbir keçirilib. Tədbirdə şəhidin həyat yolu haqqında məlumat verildikdən sonra mədəniyyət evlərindəki dərnək üzvlərinin ifasında şeirlər söylənilib, kompozisiya nümayiş olunub.

# Gəncədə Əhməd Cavadın 130 illiyi qeyd olunub

Mayın 5-də Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsinin (RMİ) təşəbbüsü və F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istiqlal şairi Əhməd Cavadın (1892-1937) 130 illiyinə həsr olunmuş tədbir keçirilib.



Yubiley tədbirində şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, digər rəsmilər, mədəniyyət, elm, təhsil xadimləri, Əhməd Cavad nəslinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir sözləri Əhməd Cavada, musiqisi dahi Üzeyir Hacıbəyliyə məxsus olan Azərbaycan Dövlət Himninin səslənməsi ilə başlayıb.

Gəncə RMİ-nin rəisi Vasif Cənnətov çıxış edərək Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamını diqqətə çatdırıb.

Əhməd Cavadın nəvəsi Süleyman Axundzadə, nəticəsi Cavad Axundzadə, kötücəsi Nərgiz Əhməd qızı, "Cavad xan" Tarix Mədəniyyət Fondunun birinci vitse-prezidenti Müzadil Həsənov istiqlal şairinin həyatı, yaradıcılığı və ictimai-siyasi fəaliyyətindən danışıblar.

Yubiley tədbiri Gəncə Dövlət Filarmoniyası "Xəmsə" estrada ansamblının (bədii rəhbər Şəhriyar Tağıyev) musiqi proqramı ilə davam edib. Filarmoniyanın solisti, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova Əhməd Cavadın sözlərinə yazılmış "Çırpınırdın, Qara dəniz" mahnısını, solistlər İlham Vəlioğlu "Gəncədən gəlirəm", Əli Məmmədov "Şükriyyə", Pərvanə Rzayeva "Gəncəm hey", Rüstəm Cəfərov "Can Azərbaycan" mahnılarını ifa ediblər. Proqramda şəhər Uşaq incəsənət məktəbinin "Xəmsə" nağaraçalanlar ansamblı (bədii rəhbər Söhrab İbrahimov), filarmoniyanın "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblı (baletmeyster Sənan Cavadov) da çıxış edib.

# Masallıda "Art Zone" rəngkarlıq simpoziumunun sərgisi

Masallı RMİ Masallı Dövlət Rəsm Qalereyasında 5-ci "Art Zone" simpoziumu iştirakçılarının sərgisi keçirilib.

"Art Zone" simpoziumu Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın təşəbbüsü və dəstəyi, "Nəfəs – insanlığa dəstək", "Avrasiya beynəlxalq araşdırmalar institutu", "Regional hüquqi və iqtisadi maarifləndirmə" ictimai birliklərinin təşkilatçılığı ilə gerçəkləşib. Layihənin məqsədi ölkəmizin mədəni həyatına fərqli baxış və yeniliklər gətirmək, fırça ustalarını tanıtmaq, rəssamlıq ənənələrinin gənc nəsillərə ötürülməsinə töhfə verməkdir.

Simpoziumun sərgisi mayın 20-dək davam edəcək.

# "Azərbaycan doğma diyarımdır"

İsmayıllı RMİ-nin təşkilatçılığı ilə "Azərbaycan doğma diyarımdır" adlı tədbir keçirilib. Azsaylı xalqların mədəniyyət və incəsənətinin tanıdılması və təbliğ edilməsi məqsədilə keçirilən tədbirdə RMİ-nin rəisi Elçin Nəcəfov, idarə və müəssisələrin əməkdaşları iştirak ediblər.



Tədbirdə bildirilib ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu, azsaylı xalqların sülh, əmin-amanlıq və dostluq şəraitində yaşadığı bir məkandır. Burada əsrlər boyu azsaylı xalqlar və etnik qruplar öz adət-ənənələrini, dillərini, dini baxışlarını, özünəməxsus həyat tərzlərini qoruyub saxlayıblar.

Tədbirdə müxtəlif etnik qruplara məxsus mətbəx nümunələri sərgilənib, "Lahıc", "Hapıt", "Ləzgi", "İvanovka" folklor kollektivləri öz dillərində mahnılar ifa ediblər.

**Hazırladı: N.Məmmədli**

# Əbədiyaşar lider, müdrik şəxsiyyət

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü bölgələrdəki mədəniyyət müəssisələrində müxtəlif tədbirlərlə qeyd edilir.



İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev Mərkəzi, Təhsil şöbəsi və Gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev: Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" mövzusunda inşa yazı müsabiqəsi keçirilib. İsmayıllı şəhər məktəblilərinin iştirak etdiyi müsabiqənin qalibləri Gənclər və idman idarəsi tərəfindən təltif ediləcəklər.

***

Sabirabad RMİ-nin əhatə etdiyi Şirvan Şəhər Tarix-Diyarşünaslıq Muzeyində "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əseridir" adlı elmi-praktik konfrans keçirilib. Konfransda ümummilli liderə həsr olunmuş "Heydərnamə" şeiri əsasında hazırlanmış videofilm nümayiş etdirilib.

Şirvan şəhər Uşaq musiqi məktəbi və Şirvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ulu öndərin anadan olmasının 99-cu ildönümü ilə bağlı tədbir keçirilib.

***

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Yeni Azərbaycan Partiyası (YAP) Masallı rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev – Azərbaycanın xilaskarı" mövzusunda tədbir keçirilib. Məktəblilərin ifasında Heydər Əliyevə həsr edilmiş şeirlər səsləndirilib.

***




Ağcabədi Regional Mədəniyyət İdarəsi (RMİ) Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Bir oğul göstərin Heydərə bənzər" adlı sərgi təşkil edilib. Mayın 12-dək davam edəcək sərgidə ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən kitab və jurnallardan ibarət 100-dək nümunə təqdim olunur.

***

Biləsuvar RMİ-nin tabeliyindəki Salyan rayon Heydər Əliyev Mərkəzində ümummilli liderin anadan olmasının ildönümü ilə əlaqədar "açıq qapı" günləri təşkil edilib.

***




Ağdaş RMİ Ağdaş rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə "Böyük ömrün anları" sənədli filmi nümayiş etdirilib. Mərkəzin əməkdaşlarının təqdimatında kompozisiya təqdim olunub.

***

Kürdəmir RMİ-nin təşkilatçılığı ilə İmişli rayon Heydər Əliyev Mərkəzində ümummilli liderin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş regional "İstedad" baxış-müsabiqəsinin yekun mərhələsi keçirilib. Müsabiqədə Kürdəmir, İmişli, Beyləqan, Füzuli və Xocavənd rayonlarından bədii qiraət, musiqi, rəsm nominasiyaları üzrə 8-29 yaş arası uşaq və gənclər iştirak ediblər.

# Bölgələrdə "Şuşa İli" tədbirləri




Xəbər verdiyimiz kimi, Kürdəmir RMİ "Şuşa İli" münasibətilə "Anadır arzulara hər zaman Qarabağ" adlı regional xor müsabiqəsi təşkil edib. Ümumilikdə 14 məktəbin iştirak etdiyi müsabiqənin yekun konserti Xocavənd rayon Uşaq musiqi məktəbində keçirilib. Azərbaycan Dövlət Xor Kapellasının bədii rəhbəri və dirijoru, Xalq artisti Gülbacı İmanovanın rəhbərlik etdiyi münsiflər heyəti kollektivlərin məharətini qiymətləndirib. Qaliblər RMİ tərəfindən mükafatlandırılıb.

***

Ağstafa RMİ Qazax Rayon Heydər Əliyev Mərkəzi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə aprelin 22-də Şuşa şəhərində reallaşan Dünya Azərbaycanlılarının V Qurultayı ilə əlaqədar "Hər bir azərbaycanlı üçün inam və ümid günü – Zəfər Qurultayı" başlıqlı tədbir keçirilib. Tədbirdə Şuşa şəhərinə 3D qrafik təsvirli virtual səyahət formatında film nümayiş olunub.

Tovuz Dövlət Rəsm Qalereyası tərəfindən "Şuşa mədəniyyət paytaxtımızdır" adlı dərnək üzvlərinin əl işlərindən ibarət rəsm sərgisi təşkil edilib.

***



Sabirabad RMİ tərəfindən keçirilən "Mədəniyyət beşiyi – Şuşa" adlı regional yaradıcılıq müsabiqəsinə yekun vurulub. Sabirabad rayon Mədəniyyət Mərkəzində keçirilən final turunda ümumilikdə 52 nəfər iştirak edib. Müsabiqənin qalibləri Sabirabad RMİ-nin fəxri fərmanı və mükafatlarla təltif edilib. Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə çıxış edərək iştirakçı və qaliblərə yeni uğurlar arzulayıb.

Regional idarənin əhatə etdiyi Hacıqabul rayon Meyniman kənd Folklor evində "Şuşa İli" çərçivəsində keçirilən tədbirdə kənd tam orta məktəbi şagirdlərinin ifasında vətənpərvərlik ruhunda hazırlanan proqram təqdim olunub.

***



Şəki RMİ Şəki şəhər Mərkəzi Kitabxanasında "Şuşanın ədəbi mühiti" adlı tədbir keçirilib. Çıxışlarda qala-şəhərin ədəbi mühitinin zənginliyindən danışılıb.

Zaqatala rayon MKS-nin Kəpənəkçi kənd kitabxanasında keçirilən "Şuşa – musiqi beşiyimiz" adlı tədbirdə kitabxananın fəal oxucuları mədəniyyət paytaxtımıza həsr olunmuş şeirlər səsləndiriblər.

***

Bərdə RMİ Bərdə rayon MKS-nin Hüseynbəyli kənd kitabxana filialı "Şuşanın tarixi şəxsiyyətləri" adlı sərgi təşkil edib.

***

Gəncə RMİ Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbində "Şuşa Qarabağın döyünən ürəyidir" adlı konsert keçirilib. Məktəbin xalq çalğı alətləri şöbəsinin müəllim və şagirdlərinin ifasında (bədii rəhbərlər Gülşən Məmmədova və Fərhad Ağayev) Üzeyir Hacıbəylinin "Cəngi" əsəri təqdim olunub.

# MEMİM Zaqatalada maarifləndirici tədbirlər keçirib

Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodik və İxtisasartırma Mərkəzinin (MEMİM) və Şəki Regional Mədəniyyət İdarəsinin (RMİ) birgə təşkilatçılığı ilə Zaqatala şəhərində "Şuşa İli" çərçivəsində müxtəlif məzmunlu maarifləndirici tədbirlər keçirilib.




Gənc mədəniyyət işçilərinə motivasiya təlimi ilə başlayan tədbirdə uğurun sirlərinə dair fikir mübadiləsi aparılıb. Uğur hekayəsini bölüşən təlimçilər əldə olunan nailiyyətlərin məqsədyönlü fəaliyyətə bağlı olduğunu diqqətə çatdırıblar.

"Mədəniyyət sahəsində liderlik" mövzusunda debatda gənc mədəniyyət işçiləri öz fəaliyyətlərində rastlaşdıqları çətinliklərin həlli yolları barədə fikirlərini bölüşüblər.

Silsilə tədbirlər çərçivəsində Zaqatala Tarix-Mədəniyyət Qoruğunda gənc mədəniyyət işçiləri arasında "Cıdır düzü" adlı intellektual yarışma da təşkil olunub. Bilik yarışmasında Balakən, Qax, Oğuz, Şəki və Zaqatala rayonlarının mədəniyyət müəssisələrinin gənc əməkdaşları iştirak ediblər. Qalib Şəki komandası olub.

Bədii hissədə ölkəmizdəki multikulturalizmin nümunəsi olan bölgənin müxtəlif xalqlarının rəqsləri və mahnıları təqdim olunub, şeirlər səslənib, yerli rəssamın sərgisinə baxış keçirilib.

Tədbirin yekununda MEMİM-in direktoru Səadət Xələfbəyli və Şəki RMİ-nin rəisi vəzifələrini müvəqqəti icra edən Tərlan Nəsibov iştirakçılara gələcək fəaliyyətlərində uğurlar arzulayıb və bu tipli tədbirlərin mədəniyyət sahəsinə verə biləcəyi töhfələri vurğulayıblar.

# Aşıq Sənəti Dövlət Muzeyində görüş

Ağstafa RMİ və Tovuz Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyində regionun saz-söz adamları ilə görüş keçirilib.

İcra başçısı Məmməd Məmmədov çıxışında aşıq sənətinin Azərbaycan xalqının tükənməz milli-mənəvi sərvətlərindən olduğunu bildirib, bu gün ölkəmizdə bu sənətə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıb.

Ağstafa RMİ-nin rəisi Nurəddin Mehdiyev regionda aşıq sənətinin inkişafı və təbliği üçün aşıqların bu ocaqda mütəmadi görüşməsinin, gənclər arasında aşıq sənətinə marağın daha da artırılmasının vacibliyini bildirib. İdarə rəisi həmçinin bu istiqamətdə mütəmadi olaraq aşıq festival-müsabiqələrinin keçirilməsinin də faydalı olacağını deyib. O, may ayında Tovuzda böyük bir saz-söz şöləninin təşkil edilməsinin planlaşdırıldığını bildirib.

Görüşdə mövzu ətrafında müzakirələr aparılıb, təkliflər səsləndirilib.

# 4 qəsəbə və 17 kənd

## Azad edilmiş ərazilərdə yaşayış məntəqələri layihələndirilir

İşğaldan azad edilmiş Laçın, Qubadlı, Zəngilan, Ağdam, Füzuli, Xocavənd, Kəlbəcər və Cəbrayıl rayonları üzrə 21 yaşayış məntəqəsinin layihələndirilməsi işləri üçün keçirilən tenderə yekun vurulub. Dövlət Satınalmaları elektron portalında yer alan məlumata görə, tenderin ümumi məbləği 11 milyon manatdır.

Laçın rayonunun Qorçu qəsəbəsi (420 min manat) və Şəlvə (297 242 manat), Güləbird (295 min manat) kəndlərinin, Ağdam rayonunun Xıdırlı (470 min manat), Kəngərli (325 min manat), Sarıcalı (290 min manat), Cəbrayıl rayonunun Şükürbəyli (378 424 manat), Horovlu (387 370 manat) kəndlərinin və Xudafərin qəsəbəsinin (185 min manat) layihələndirilməsinə başlanılıb.

Tenderdə həmçinin Qubadlı rayonu üzrə Zilanlı (335 min manat), Xanlıq (380 min manat), Mahruzlu kəndlərinin (360 min manat), Zəngilanın Məmmədbəyli (339 999 manat), Cahangirbəyli (330 min manat), Şuşa rayonunun Daşaltı kənd yaşayış məntəqəsinin (250 min manat) layihələndirilməsi nəzərdə tutulub.

Kəlbəcərin Zar (365 800 manat), Zallar (310 min manat), Yanşaq (270 min manat) kəndləri, Füzuli rayonunun Pirəhmədli (460 min manat) və Dədəli kəndləri (490 min manat) bu siyahıya daxildir.

Layihələndirmə üzrə ən böyük məbləğ Xocavənd rayonunun Hadrut və Tuğ qəsəbələrinin və ətraf kəndlərin bərpası ilə bağlıdır. Bu tenderlər üzrə qaliblərlə 2,242 milyon və 2,1 milyon manat həcmində müqavilə imzalanıb.

Qeyd edək ki, tenderlərin qalibləri "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutu, "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu, "Qala Group" MMC, "Feniks-AA" MMC, "Bureau Mühit" MMC, Türkiyənin "REM Mimarlık Dekorasyon Restorasyon Proje ve Taahhüt Hizmetleri" şirkətinin Azərbaycandakı filialı və BİMD QSC seçilib.




# Üzeyir Hacıbəylinin şah əsəri

## "Koroğlu"nun 85 illiyi qeyd edildi

Üzeyir Hacıbəyli yaradıcılığının şah əsəri – "Koroğlu" operasının ilk tamaşasının 85 illiyi tamam oldu. Bu münasibətlə aprelin 29-da Üzeyir Hacıbəylinin Ev-Muzeyində əlamətdar yubileyə həsr olunmuş tədbir keçirildi. "Şuşa İli" çərçivəsində təşkil edilən tədbirdə mədəniyyət və incəsənət xadimləri, ziyalılar iştirak edirdi.

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov tədbiri açaraq 30 aprel 1937-ci ildə premyerası olan "Koroğlu" operası haqda geniş məlumat verdi. Diqqətə çatdırdı ki, dahi bəstəkar "Koroğlu" operasını ərsəyə gətirməzdən əvvəl bu mövzu ətrafında 20 il düşünüb. Xalq musiqisinin əsaslarını, köklərini böyük səbir və təmkinlə öyrənib. Opera yazmaq sənətinin hər bir cəhətini ətraflı öyrəndikdən sonra 1932-ci ildə cəsarətlə işə başlayıb. Bəstəkar, digər operalarında olduğu kimi, "Koroğlu"da da ariya, duet və s. opera elementlərini uğurla realizə edib, onları Azərbaycan muğamları üzərində qurub. Əsər milli opera sənətimizin ən dəyərli nümunəsi kimi yarandığı gündən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının repertuarında öz layiqli yerini tutur.

Sərdar Fərəcov qeyd etdi ki, bu opera Üzeyir Hacıbəylinin həm Azərbaycan bəstəkarlıq məktəbinə, həm də dünya musiqisinə ən qiymətli bir töhfəsidir. Dahi bəstəkarın arzusu dünyanın ən böyük operaları sırasında yer tuta bilən bir opera yaratmaq olub. "Koroğlu" operasını yazmaqla bu arzusuna çatıb. Operanın premyerasında tamaşaçı qismində iştirak edən 19 yaşlı bəstəkar Qara Qarayev öz təəssüratını bölüşərkən deyib: "Bu, təkcə bir operanın təntənəsi deyildi, böyük bir millətin bir möhtəşəm sənət əsərinə olan sevgisi və sevinci idi...".

Ankara Qazi Universitetinin professoru, Xalq artisti Əflatun Nemətzadə "Koroğlu" operasının möhtəşəmliyi və onun dünya miqyasında böyük maraqla qarşılanmasından danışdı. Qeyd etdi ki, Üzeyir Hacıbəylinin şah əsəri Azərbaycanın hüdudlarından uzaqlarda – Türkiyə, Qazaxıstan, Qırğızıstan, Tatarıstan və Başqırdıstanda da böyük uğurla nümayiş olunub, operasevərlər tərəfindən alqışlarla qarşılanıb.

Üzeyir Hacıbəylinin bənzərsiz yaradıcılığı ilə musiqi mədəniyyətimizdə dərin iz qoyduğunu vurğulayan şairə Zərəngiz Dəmirçi Qayalı "Koroğlu" uvertürasına həsr etdiyi şeirini oxudu.

Bülbülün Ev-Muzeyinin direktoru Fərqanə Cabbarova çıxışında Üzeyir Hacıbəylinin "Koroğlu" operasının musiqi materialına gətirdiyi yenilikləri yada saldı. Bəstəkarın simfonik orkestrə tar, qaval, qara zurna kimi milli musiqi alətlərini, eyni zamanda operanın musiqi materialına çoxsəsliliyi daxil etdiyini dedi. Onu da qeyd etdi ki, Moskvada keçirilən Azərbaycan mədəniyyəti (1938) dekadasında oynanılan "Koroğlu" operası dövrün görkəmli sənətkarları tərəfindən çox bəyənilib. Rus qrafiki M.Aleksiç məşhur rəssam İ.Repinin "Burlaklar Volqada" əsərini təqlid etməklə çəkdiyi "Operanın yolu" şarjında Üzeyir bəyi əlində saz tutmuş halda sovet bəstəkarlarının ön cərgəsində təsvir edib...

Çıxışlardan sonra bədii hissəyə keçildi. Dahi bəstəkarın əsərlərindən ibarət musiqi nömrələri təqdim edildi.

**Savalan Fərəcov**

## Yubilyar "Koroğlu"nun növbəti tamaşası

Aprelin 30-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Üzeyir Hacıbəylinin "Koroğlu" operasının növbəti tamaşası olub. Tamaşa operanın 85 illiyinə həsr edilib.



Yubiley tamaşasında Koroğlu partiyasını Akademik Opera və Balet Teatrının solisti, Əməkdar artist Ramil Qasımov ifa edib. Digər rollarda Xalq artistləri Əli Əsgərov, Əkrəm Poladov, Fidan Hacıyeva, Əməkdar artistlər İlahə Əfəndiyeva, Cahangir Qurbanov, Tural Ağasıyev və başqaları çıxış ediblər.

Opera tamaşasını teatrın baş dirijoru, Əməkdar artist Əyyub Quliyev idarə edib.

# "Yeni adlar"da daha bir musiqi axşamı

Mədəniyyət Nazirliyi tərəfindən bu ilin mart ayından həyata keçirilən "Yeni adlar" layihəsi davam edir.

Layihə üzrə növbəti musiqi axşamı aprelin 29-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında gerçəkləşdi. Gənc pianoçular – respublika və beynəlxalq müsabiqələr laureatları Rüstəm Zeynalov və Ceyhun Əzizovun iştirakı ilə konsert proqramı təqdim olundu.

Musiqi axşamının tamaşaçıları arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, təhsil naziri Emin Əmrullayev, mədəniyyət xadimləri vardı.

Gənc pianoçuları Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor Orxan Həşimov) müşayiət edirdi.







Proqramda L.V.Bethovenin fortepiano və orkestr üçün 4 nömrəli konserti və S.Raxmaninovun fortepiano və orkestr üçün "Paqanini mövzusunda rapsodiya"sı ifa olundu. Orkestrin və gənc musiqiçilərin ahəngdar çıxışına tamaşaçılar gur alqışlarla cavab verdi.

***

"Yeni adlar"ın budəfəki iştirakçılarını yaxından tanıyaq.

Rüstəm Zeynalov 1995-ci ildə Bakıda anadan olub. Bülbül adına Orta İxtisas Musiqi Məktəbində təhsil alıb. 2018-ci ildə Sankt-Peterburq Dövlət Konservatoriyasını bitirib. Daha sonra P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında magistr təhsili alıb və 2020-ci ildə bu təhsil ocağını uğurla başa vurub. 2008-ci ildə Rüstəm Zeynalov Prezidentin xüsusi aylıq təqaüdünə layiq görülüb, adı gənc istedadların "Qızıl kitabı"na yazılıb. 2018-ci ildə Gənclər və İdman Nazirliyinin "Gənclər mükafatı" ilə təltif edilib.

Gənc pianoçuların F.Şopen adına IX Beynəlxalq müsabiqəsinin qalibi olan R.Zeynalov Avropa Pianoçu Müəllimlər Assosiasiyası (EPTA) tərəfindən Xorvatiyada təşkil edilən VIII Beynəlxalq müsabiqədə I yerin qalibi olub və üç xüsusi mükafata layiq görülüb. O, 2019-cu ildə Romada keçirilən IX Beynəlxalq "Young Academy Award" piano yarışmasında birincilik əldə edib. Həmçinin Almaniyada "Young euro classic", Fransada "Piano Pic", İtaliyada "Pontino", MDB-nin Qazaxıstanda keçirilən "Delfi Oyunları" və ölkəmizdə təşkil olunan ənənəvi M.Rostropoviç və Ü.Hacıbəyli beynəlxalq musiqi festivallarının iştirakçısı olub.

Ceyhun Əzizov 1999-cu ildə Salyan şəhərində anadan olub. O da Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin məzunudur. 2020-ci ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasını bitirib Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistr pilləsinə daxil olub.

2008-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş gənc ifaçıların I Respublika müsabiqəsində III, 2013-cü ildə Rusiyanın Pyatiqorsk şəhərində V.Safonov adına X Beynəlxalq müsabiqədə II, 2018-ci ildə isə Gürcüstanın Tbilisi şəhərində Vaja Çacava adına müsabiqədə II yerə layiq görülüb. 2018-ci ildə Fransanın Annemas şəhərində keçirilən Adilə Əliyeva adına pianoçuların XII Beynəlxalq müsabiqəsində I yerin qalibi olub.

Bildirək ki, "Yeni adlar" layihəsi üzrə konsert proqramları iyul ayınadək davam edəcək.

**Nurəddin Məmmədli**

# Sələmə verilmiş duyğular

Bu boyda dünyada, bu ucsuz-bucaqsız ənginlikdə insanlar təkdir. Əslində, hər yer, hər yön insana çıxsa da, yenə də hamı təkdir. Sanki bütünlükdə Yer üzündə bir tək insan var və onun da ətrafı tənhalıqla çəpərlənib. Özü də insanların məhkum etdiyi, rəva gördüyü tənhalıqla...



Təxminən bir saat ərzində əzab çəkən Müamiləçinin (Sələmçinin), əslində, öz içində çoxdan ölən, özünü hələ illər əvvəl ən uca yerdən yerə çırpıb didik-didik olan insanın sonuncu ümidinə şahidlik idi bu oyun. O, nə dedi? Heç nə, sadəcə insan kimi, hiss edərək yaşayın, sevin, sevilin və bir-birinizə zamanında sevginizi etiraf edin. Ən azı onun kimi 5 dəqiqə gecikməyin əzabını daşımayın...

Ötən həftə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında böyük rus yazıçısı Fyodor Dostoyevskinin "Utancaq qız" fantastik povesti əsasında hazırlanan eyniadlı monotamaşanı izlədim.

Xalq artisti, Prezident təqaüdçüsü Cənnət Səlimovanın quruluş verdiyi tamaşanın ideya müəllifi Əməkdar incəsənət xadimi Əliqismət Lalayevdir.

Əsərin tərcüməçisi və tamaşada yeganə qəhrəmanın ifaçısı Əməkdar artist, "Qızıl Dərviş" və "Zirvə" mükafatları laureatı Şövqi Hüseynov, səhnə və geyim üzrə tərtibatçısı Qabil Gözəlovdur. Tamaşanın musiqisində Alfred Şnitkenin "Uçuş" simfonik əsərindən istifadə olunub.

İnsan duyğularının fərqli təlatümlərdəki vəziyyətini sadə və təbii detallarla nümayiş etdirən tamaşada zamanın qəddar qanunlarından törəyən müxtəlif hadisələr bütün çılpaqlığı ilə göstərilir.

Tamaşa boyu qəhrəman qarışıq hamını bir sual düşündürür: "O qadın axı niyə öldü?..." Bu ağır sual ətrafında hissləri tüstü bacasında boğulan adam kimi çırpınan Sələmçi (müəllif) və onun ruhunu, əzab dolu bəraət və müqavimətini bizə ustalıqla çatdıran aktyor (oyunçu) tamaşaçını da özünə qatıb bu sadə mətləbə dolanbaclı yozum ilə izah verdi: gecdir. Özü də bu gecikmə Utancaq qız və Sələmçinin faciəsi yox, ümumilikdə hər zaman bir-birinə gecikən adamların ağrısıdır.

"Utancaq qız" müəllifin həcm etibarilə kiçik olmasına rəğmən daim maraqla oxunan əsərlərindəndir. Dəfələrlə ekranlaşdırılan nümunə teatr səhnələrində də kifayət qədər yozum görüb. Biz burada məzlum, yetim, azyaşlı bir qızın acınacaqlı həyat hekayəsini dinləyib (əslində həm də görüb) müdaxilə edə bilməməyin əzabını yaşayırıq. Lap Sələmçinin özü kimi.

Valideynlərini erkən itirən bu qızcığazın həyatda tutuna biləcəyi yeganə doğmaları xalalarıdır ki, onlar da zavallını incidir, hətta pul müqabilində özündən çox-çox yaşlı dul bir kişiyə satmağı düşünürlər. Bu məqamda Sələmçi bir qəhrəman kimi peyda olur və əvvəllər də onun müştərisi olan qızcığaza elçi düşür, beləcə, bir-birindən başqa seçimi, çarəsi olmayan cütlük evlənirlər.

Diqqət etsəniz, insanların, insanlığın imtina etdiyi keçmiş hərbçi Sələmçi də bədbəxtdir və qızcığazdan çox onun özünün xilasa ehtiyacı var. Xəsis, ömrü pul kisəsi ilə müştərilərinin əlləri arasındakı alverdə keçən adamın işıqlı arzuları da var: lazım olan pulu yığıb insanlardan uzaq yerə – bir sahil qəsəbəsinə köçüb, oğul-uşağa qarışmaq, qayğısız yaşlanmaq.

Amma bütün bunlara rəğmən onlar xoşbəxt ola bilmirlər. Qız xilaskarına nifrət edir və sonda özünü pəncərədən ataraq bütün yarımçıq duyğularının üzərindən xətt çəkməyi bacarır. Beləcə yenidən natamam hisslərin içində qıvrılan Sələmçini əbədi peşmanlıq ilə tək qoyur.

Tamaşa bəyaz geyimli, dalğın saçlı qızın iri pəncərədən tullanması ilə (eyniadlı filmdən kadr) başlayır. Səhnənin ortasındakı tabutun qarşısında dayanan kişi çox çaşqın, kədərli və həm də qəzəlidir. Bu qarışıq hisslərin içərisində özünə və tamaşaçısına ən çox hiss etdirdiyi peşmanlığıdır.

O, bütün hekayəti danışır və bu zaman göz yaşları, ağrı, etiraf, bəraət, məsumiyyət kimi tamamilə təzadlı duyğuların içində qıvrılır. Özünün və qurbanının həyatını nəfəsi kəsilə-kəsilə nəql edir. Maraqlıdır ki, rəvayətçi öz adını çəkmir.

Hekayə ümumilikdə Dostoyevskinin despot ər və sınmış arvad, bu nümunədə cəllad və qurban haqqında fikirlərinin növbəti mərhələsi də sayıla bilər. Bununla müəllif həm də dövrün reallıqlarını göstərmək istəyir: insanlar yaşamaq üçün təkcə bədənlərini yox, həm də duyğularını satırlar. Sonda isə heç nə qazanmırlar. Əksinə, ümidlərini də itirib, tamamilə müflisləşirlər.

Dostoyevskinin bu ağır dilemmasının öhdəsindən ustalıqla gələn rejissor tamaşaçını əsas etibarilə müşahidəçi qismində saxlayır. Ta özləri prosesə "qoşulanadək". Bəli, yalnız bu təmasdan sonra onun eksperimenti başlayır: öz monoloqunu, sadəcə, özünə de.

Əlavə effekt və təsirlər (işıq, musiqi, tərtibat) haqqında demək olar ki, düşünməyən, bütün gücünü canlı dekorasiyasına (aktyoruna) verən rejissor nə istədiyini yaxşı bilir. Elə aktyor da. Oynamır, oyuna o prizmadan baxmır. Sələmçinin əzablarını Utancaq qızın gözlərində gördüyü kimi "göstərir", sonra isə duyğularını sələmə qurban verən qəhrəmanın məşəqqətini "hərraca" çıxarır. İnsafən, yaxşı qiymətə də "satır".

"Məni rədd etdiniz, ey insanlar, yəni nifrətlə, susqunluqla qovdunuz və bütün həyatım boyu bu təhqiri hiss etdim. Buna görə də özümü sizdən qoruyacaq divar qurdum. Amma yenə də onu uçurdunuz" deyərkən sanki tamaşaçısını var gücü ilə silkələyir, yaddaşını təzələyir.

Dostoyevskinin bütün əsərlərində fərqli vəziyyətlərdə verdiyi "Xeyir ilə şər arasındakı sərhəd haradadır" sualına cavab axtarılan tamaşada usta gedişlə və çox sakitcə "Fərdin və bütün cəmiyyətin qəlbində" cavabı verilir...

**Həmidə Nizamiqızı**

# Musiqiçi soydaşımızın səkkiz il sonra Bakıda konserti

22-23 aprel tarixlərində mədəniyyət paytaxtımız Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı, qürbətdə yaşasa da, qəlbi Vətən eşqi ilə döyünən tanınmış soydaşlarımızı da bir araya gətirdi. Zəfər soraqlı qurultaya ABŞ-da yaşayıb-yaradan musiqiçi və pedaqoq, Texas ştatının Arlinqton şəhərindəki Birinci birləşmiş metodist kilsəsinin əsas orqan ifaçısı, Texas Universiteti Dallas filialının professoru Cəmilə Cavadova-Spitzberq də gəlmişdi. Cəmilə xanım Vətənə həm də konsert töhfəsi ilə təşrif buyurmuşdu.



Aprelin 28-də o, Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında konsert proqramı ilə həmvətənlərinin könlünü oxşadı.

Konsertdən əvvəl fikirlərini bölüşən musiqiçi son bir neçə gündə həyatının ən həyəcanlı təcrübəsini yaşadığını dedi: "Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan diasporunun inkişafında xidmətlərimə və ABŞ-la Azərbaycan arasında mədəni əlaqələrin qurulmasında əməyimə görə "Tərəqqi" medalı ilə təltif olundum. Mükafat mənə Dünya Azərbaycanlılarının 5-ci Qurultayında, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada təqdim edildi. Məni çox duyğulandıran və qürurlandıran unudulmaz hadisənin əhəmiyyətini sözlərlə ifadə etmək çətindir. Hörmətli Prezidentimizə, Diasporla İş üzrə Dövlət Komitəsinə mənə göstərdikləri etimada görə təşəkkür edirəm".

Cəmilə xanım Azərbaycan tamaşaçısı qarşısında çıxış etməkdən xoşbəxt olduğunu dedi: "Bakıda son konsertim 2014-cü ildə olmuşdu. Müəyyən səbəblərdən bu illər ərzində Bakıda konsert verə bilmədim. Azərbaycan auditoriyasının xoş əhval-ruhiyyəsi, ifaçılığımı sevgi ilə qarşılaması, əlbəttə ki, mənə böyük ruh yüksəkliyi verir. Bu mənim üçün böyük bir şərəfdir. Konsertin proqramını məqsədyönlü şəkildə seçmişdim. Azərbaycan auditoriyası Almaniyanın şimal hissəsinin bəstəkarlarını yaxşı tanısa da, cənub tərəfin bəstəkarlarını bir o qədər də tanımır. Bu məqsədlə repertuara az tanınan alman bəstəkarlarının əsərlərini daxil etdim. Əməkdar incəsənət xadimi Tahirə Yaqubovanın Qara Qarayevin fortepiano üçün yazdığı əsərlərin və eyni zamanda baletlərindən parçaların orqan aləti üçün işləmələrini hər zaman sevgi ilə ifa edirəm. Dünyada baş verən hadisələrlə əlaqədar "Şillerin siyahısı" filmindən musiqi bu gün çox səslənir. O səbəbdən də həmin əsəri konsertin proqramına salmışam. Kamera və orqan musiqisi zalını çox sevirəm. Bir musiqiçi kimi püxtələşməyimdə orqan zalının böyük rolu olub. Həmçinin Bakı Musiqi Akademiyasının orqan zalını qeyd etmək istərdim. Müəllimim Tahirə xanımın ölkəmizdə orqan musiqisinin inkişafında böyük əməyi olub. Həm də bu il onun 80 illik yubileyidir. Çalışdım ki, onu sevindirim...".

Konsert proqramında alman, Avstriya, Azərbaycan və Amerika bəstəkarlarının orqan üçün işləmələri səsləndi. Musiqiçinin ifası alqışlarla qarşılandı.

Qeyd edək ki, Cəmilə Cavadova-Spitzberq Vətən müharibəsində Qələbəyə həsr olunan layihənin də müəllifidir. Zəfərimizin şərəfinə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı incəsənət xadimlərinin yaratdığı "Qarabağ uğrunda" həmrəylik cəmiyyəti və şəxsən Cəmilə xanımın təşkilatçılığı ilə "Qarabağa sülh, sevgi və ümid" adlı qlobal xeyriyyə konserti keçirilib. Həmçinin dahi bəstəkarımız Üzeyir Hacıbəylinin 135 illik yubileyi münasibətilə 2021-ci ildə ABŞ-da Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin sədri Nərgiz Əliyarovanın təşəbbüsü ilə keçirilən beynəlxalq bəstəkarlıq müsabiqəsinin həmmüəllifidir. Layihənin məqsədi bəstəkarın əsərlərini plagiatdan qorumaq və Azərbaycan mədəniyyətini təbliğ etməkdir. Müsabiqədə Üzeyir bəyin əsərlərindən seçilmiş melodiyalar əsasında orijinal əsərin yazılması və mənbənin qeyd olunması əsas şərtlərdən biri idi.

Cəmilə xanım ABŞ, Hollandiya, Almaniya, Fransa, Danimarka və İngiltərədə konsert proqramları ilə çıxış edib. Azərbaycan və ABŞ arasında mədəni əlaqələri genişləndirmək məqsədilə 2017-ci ildə Azərbaycan-Amerika Musiqi Fondunu (AAMF) təsis edib, onlarla layihə həyata keçirib. Həmvətənimizə bu fəaliyyətində yeni uğurlar arzulayırıq.

**Lalə Azəri**

Fikrət Əmirov – 100

# Bəstəkar dühası təsviri sənətdə



Rəssamlar təkcə zövqləri oxşayan mənzərələr, natürmortlar yaratmır, həm də ədəbi-mədəni, tarixi fakt və hadisələrə öz münasibətlərini ortaya qoyurlar. Böyük şəxsiyyətlərin, əlamətdar hadisələrin əks olunduğu əsərlər eyni zamanda zəngin informasiya daşıyır.

Tanınmış mədəniyyət və incəsənət xadimlərinin özü də zaman-zaman təsviri sənət ustaları üçün mövzuya çevrilib. Rəssamlar bəstəkar obrazını yaradarkən, əlbəttə, yaradıcı insan kimi onların mənəvi aləmini, psixoloji əhval-ruhiyyələrini verməyə çalışırlar. Burada bəstəkarla yaxından tanışlıq, görüş, onun daxili aləminə bələdlik də mühüm amildir. Yaxud da əsərlərinə dönə-dönə qulaq asır, məzmunu ilə yaxından tanış olurlar. Rəsm və ya heykəltəraşlıq kompozisiyasına daxil edilən royal, partitura, not yazıları isə atribut rolunu oynayır...

Bu il 100 illiyini qeyd etdiyimiz dünya şöhrətli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti Fikrət Əmirov da həm sağlığında, həm də vəfatından sonra rəssamların fırçasında, heykəltəraşların tişəsində obrazlaşıb. Bəstəkarın obrazı əsasən gərgin yaradıcılıq axtarışları fonunda və ya musiqini dinləyən, not dəftərini vərəqləyərək xəyala dalan vəziyyətdə təsvir edilib.

Bəstəkarın obrazlarını boyakarlıqda Mikayıl Abdullayev, Tahir Salahov, Mikayıl Əbdürrəhmanov, Nadir Axundov, Elxan Tahirov, qrafikada Toğrul Nərimanbəyov, Elturan Avalov, heykəllərdə Cəlal Qaryağdı, Ömər Eldarov, Namiq Dadaşov düşünən, musiqiyə qulaq asan vəziyyətdə təsvir ediblər.

Fikrət Əmirovun ən məşhur portretini 1967-ci ildə Xalq rəssamı Tahir Salahov kətan üzərində yağlı boya ilə ərsəyə gətirib. Bu əsər hazırda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır. Elxan Tahirovun kətan üzərində yağlı boya ilə çəkdiyi "Fikrət Əmirovun portreti" əsəri isə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində qorunur.



Xalq rəssamı Toğrul Nərimanbəyovun 1979-cu ildə "Bəstəkar Fikrət Əmirov" (kağız, pastel) və Elturan Avalovun "Fikrət Əmirov" adlı qrafik əsərləri mövzu və yanaşma baxımından özünəməxsusluğu ilə seçilir. Hər iki əsərdə düşünən bəstəkar obrazı fərqli rakursdan təsvir edilir. Qaşları çatılmış, başını aşağı tutub düşünən və kədərli bəstəkara obrazı ilə (E.Avalov) yenə də düşünən və nikbinliklə gələcəyə baxan portret T.Nərimanbəyov) dahi sənətkarın yaradıcı keyfiyyətlərini qabarıq büruzə verir. T.Nərimanbəyov çoxçalarlı yaradıcılığında portret janrına da xüsusi üstünlük verib. Rəssam portretini çəkdiyi adamları çox yaxşı tanıyırdı. Əgər rəssam onları yaxından tanımasaydı, onlara xas olan xarakterik cizgiləri qabarıq verə bilməzdi. Ona görə də portretləri daha çox naturadan çəkir və bütün diqqəti insan həyatının üz cizgilərində əks olunmuş təsvirinə yönəldirdi. "Bəstəkar Fikrət Əmirov" portreti də bu mənada müəllifin diqqətəlayiq əsərlərindəndir.



Rəssamlarımız bəstəkarın portretlərini yaratmaqla yanaşı, müəllifin əsərlərinə də müraciət ediblər. Sənətkarın "Sevil" operası, "Min bir gecə" və "Nizami" baletlərinin dekorasiya və geyim eskizləri buna misaldır. Xalq rəssamı Tahir Tahirovun "Min bir gecə" baletinə geyim eskizi xüsusilə maraqlıdır. Qarışıq texnika ilə işlənən eskizdə miniatür sənətinə yaxınlıq hiss olunur.

Qeyd etmək yerinə düşər ki, vaxtilə bəstəkara ithaf edilmiş dostluq şarjları da sənətkarın yaradıcı obrazının təqdimi baxımından əhəmiyyətlidir. Rəssam Nəcəfqulu İsmayılovun çəkdiyi şarjlar Fikrət Əmirovun "Musiqi düşüncələri" və "Musiqi səhifələri" kitablarının üz qabığında verilib.

## Heykəlləşən sənət

Azərbaycanın musiqi mədəniyyətində silinməz iz qoyan bəstəkarın həyat və yaradıcılığı ona ucaldılan heykəllərdə də əksini tapıb. Burada ilk növbədə onun qəbirüstü abidəsini qeyd etməliyik. Abidənin müəllifi, Xalq rəssamı Ömər Eldarovun düşüncələri işığında bu əsərə nəzər salacağıq.

Bu yerdə akademik İsa Həbibbəylinin Ömər Eldarovun sənəti haqqında fikirlərinə diqqət yetirmək istərdik: "Ömər Eldarovun düşünən heykəlləri həm də düşündürür. Düşünən heykəllərin insanları düşündürməsi onu yaradan ustad heykəltəraşın bu torpağın böyük şəxsiyyətlərinə ehtiramı, ölkəsinin sabahına dərin inamıdır. Ömər Eldarovun heykəlləri təkcə ənənəvi postamentdən və şəxsiyyətin əzəmətli görüntüsündən ibarət olmayıb, daha çox fikir, düşüncə, mətləb ifadə edən monumental sənət nümunələridir. Bu heykəllər insan düşüncəsinin abidələridir. Bu mənada akademik Ziya Bünyadovun, görkəmli bəstəkarlar Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, maestro Niyazinin qəbirüstü abidələri Ömər Eldarovun sərt realizminin fərqli təzahürləri kimi cəlbedici və düşündürücüdür".




Fikrət Əmirovun məzarüstü abidəsi haqqında müəllif Ömər Eldarov deyir: "Bəstəkarın abidəsini yenidən hazırlasaydım, elə notlar əlavə edərdim ki, dahiliyi daha qabarıq görünə bilsin. Ümumiyyətlə, dahi şəxsiyyətlərin heykəllərini hazırlayanda hər zaman eyni hissi – minnətdarlıq duyğusu yaşayıram. Fikrət Əmirovu həmişə dahi bəstəkar hesab etmişəm. Onun özünəməxsus xüsusiyyətləri mənə ildən-ilə daha da geniş aspektdə agah olur. Düşünürəm ki, o elə sağlığında dünyada qəbul edilən bəstəkar idi. Amma bu gün onun əsərlərinə dünyada tələbat var, bənzərsiz musiqi irsinin dəyəri getdikcə daha da artır. Mən bəstəkarın muğam-simfoniyalarını dinləyəndə masştabın genişliyini duyuram. Qəbirüstü abidəsini hazırlayanda oğlu Cəmil mənə bəzi məqamları demişdi. Dediklərində həqiqət var idi. Fikrət Əmirov özlüyündə monumental insan idi. Yəni qəbirüstü abidəni hazırlayanda da eyni düşüncə ilə yanaşırdım işə. Onunla yaxın tanış olmasam da, bir-iki dəfə mənim emalatxanamda müəyyən səbəblərdən olmuşdu...".

Heykəlin texniki tərəfləri barədə danışan Ömər müəllim kompozisiyanın ağ mərmərdən xüsusi yığıldığını bildirir. Qeyd edir ki, ağ mərmər klassik xarakter daşıyır: "İş ondadır ki, mən o vaxt heykəli o cür təsəvvür etmişdim. İndi isə daha başqa tərəfdən baxıram. Biz heykəlləri, abidələri başqaları üçün deyil, xalq üçün yaradırıq. O dövrdə mən Fikrət Əmirovun musiqiçi kimi lirikliyini, dəqiqliyini, aristokrat görünüşünü çatdırmaq istəmişdim. Bu gün isə onu daha qabarıq, dinamik və çılğın şəkildə təqdim etmək istəyərdim. Heykəl bəstəkarın vəfatından bir il sonra ərsəyə gəldi".

Fikrət Əmirovun daha bir abidəsi paytaxtımızda bəstəkarın adını daşıyan küçədəki kiçik bağda ucaldılıb. Abidənin açılışı 2011-ci il sentyabrın 19-da Prezident İlham Əliyevin iştirakı ilə gerçəkləşib. Heykəlin müəllifi, Əməkdar rəssam mərhum Namiq Dadaşovdur. Tuncdan hazırlanmış abidənin ümumi hündürlüyü 3,6 metrdir. Royalın fonunda sanki dirijorluq edirmiş kimi təsvir olunan heykəl bəstəkarın musiqi dühasının bəşəriliyini simvolizə edir.

Bəstəkarın daha əzəmətli obrazı isə şöhrəti dünyanı dolaşan bənzərsiz əsərlərində yaşayır. Əbədi ömür qazanan sənətkar obrazı...

**Lalə Azəri**

"Şuşa İli"

# "Məclisi-fəramuşan" –

## Yaxud unudulanlardan miras qalan unudulmayanlar

Muğam-sənət beşiyi Şuşada ədəbiyyatın inkişafında mühüm rol oynayan məşhur poetik məclislərdən "Məclisi-üns" haqqında məlumat vermişdik. Bu dəfə "Məclisi-üns"dən səkkiz il sonra yaradılan "Məclisi-fəramuşan" ("Unudulmuşlar məclisi") barədə söz açacağıq.

Bu ədəbi məclis birinci yaradıcılıq birliyi formalaşarkən unudulmuş, yaxud diqqətdən kənarda qalmış söz adamları tərəfindən təşkil olunub. "Məclisi-fəramuşan" həm də "Məclisi-xamuşan" ("Dinməz, sakit adamlar məclisi") adı ilə tanınıb. 1872-ci ildə Abdulla bəy Asi, Mirzə Əbülhəsən Şəhid, Mirzə Əbdül Şahin, Fatma xanım Kəminə, Həsənəli xan Qaradaği və başqaları Mir Möhsün Nəvvabın rəhbərliyi altında bu ədəbi məclisdə bir araya gəliblər.

Mənbələrdə başqa məclislər kimi "Məclisi-fəramuşan"ın da üzvlərinin adları da tam əhatə olunmayıb. Onların adı daha çox Şuşa şairlərinin şeirlərindən, digər şəhərlərdəki şairlərlə məktublaşmalardan müəyyən edilib. Məsələn, M.M.Nəvvabın farsca "Divan"ında Məşədi Cəfərqulu Kərbəlayı İbrahim oğlunun, "Tarixi-Qarabağ"ın müəllifi Mirzə Camalın oğlu Mehdi bəy və Hacı Məşədi Əli oğlunun "Məclisi-fəramuşan"ın üzvü olduğunu bildirib. O, bu "Divan"da həmin şəxslərin vəfatını da qeyd edib. Nəvvab şeirlərində Əbülbərəkat deyə adını çəkdiyi Məşədi Cəfərqulu Kərbəlayı İbrahim oğlunun 1896, Mehdi bəy Mirzə Camal oğlunun 1887 və Hacı Əmir Məşədi Əli oğlunun 1887-ci ildə vəfat etdiklərini nəzmlə diqqətə çatdırıb.

Araşdırmalarda "Məclisi-fəramuşan"ın iştirakçıları arasında yuxarıda adları çəkilən söz-sənət adamları ilə yanaşı, Məşədi Əyyub Baki, Abdulla bəy Abış, Baxış bəy Səbur, Bəhram bəy Fədai, Mirzə Muxtar, Məşədi Məhəmməd Bülbül, Molla Xəlil Şaki, Mirzə Məhəmməd Katib, Həsən Qara Hadi, Xarrat Qulu Yusifi, Mirzə Hüseyn Salar, Mirzə İsmayıl Məhzun, Mirzə Əli Aşiq, İbrahim bəy Azər, Məşədi İsi, Hacı Hüsü, Sadıqcan və başqalarının adı çəkilir.

"Məclisi-fəramuşan"ın adı haqqında M.M.Nəvvab avtoqraf təzkirəsində də yazıb: "Fəramuşan" şairlərin və zəriflərin toplandığı Nəvvabın mənzilinin adıdır". Buradan belə qənaətə gəlmək olur ki, məclisin yığıncaqları Nəvvabın mənzilində keçirilib. Orada musiqiçi, xanəndə və şairlərlə yanaşı, Şuşanın arif şəxsləri də iştirak edib.

Mənbələrdə o da qeyd edilir ki, əvvəllər "Məclisi-üns"lə "Məclisi-fəramuşan" arasında müəyyən sərinlik olsa da, bu münasibət sonralar aradan qalxıb. Hətta məclis üzvləri bir-birinə qonaq gedib, yığıncaq və müşairələrdə (şeirləşmə) iştirak ediblər. "Məclisi-üns"ün üzvlərindən Bəhram bəy Fədai, Mirzə Ələsgər Növrəs, Mirzə Cəfər "Məclisi-fəramuşan"ın da yaxın iştirakçıları olublar. Nəvvab həmişə X.Natəvanın hal-əhvalını sorub. Hətta onun səsi-sədası gəlməyəndə xüsusi məktub yazıb səbəbini xəbər alıb. Başqa şəhərlərdən gələn məktublar, müzakirəyə ehtiyacı olan məsələlər hər iki məclisdə müzakirə edilib.

"Məclisi-fəramuşan"da şairlər müşairə zamanı deyilən qəzəli onun bəhr və təqtisinə müvafiq olaraq oxuyar və həmin ahəngə ayaqlarını yerə vurub ona uyğun səs çıxardıblar. Məclisdə şairlərlə yanaşı, musiqiçilər də yaxından iştirak ediblər. Məşhur Qarabağ xanəndə və tarzənlərindən Xarrat Qulu, Mirzə Sadıqcan, Hacı Hüsü, Məşədi İsi məclisin şöhrətinə şöhrət qatıblar.

"Məclisi-fəramuşan"ın nəzdində M.M.Nəvvab və Hacı Hüsünün rəhbərliyi altında "Xanəndələr məclisi" adlı bir musiqi məclisi də fəaliyyət göstərib. Məşədi İsi, Keştazlı Haşım, Hacı Hüsü, İslam Abdullayev, Mirzə Muxtar, Malıbəyli Həmid və digər xanəndələr həmin məclisin üzvləri olub.

Başqa ədəbi məclislərdə olduğu kimi, "Məclisi-fəramuşan"ın üzvləri də ancaq klassik üslubda-əruz vəznində yazmaqla məhdudlaşmayıb. Heca vəznində də gözəl şeirlər yaradıblar. "Məclisi-üns"ün üzvü olmasına baxmayaraq, "Məclisi-fəramuşan"la əlaqəsini kəsməyən M.Ə.Növrəslə M.M.Nəvvabın bir-birinə yazdıqları mənzum məktubların bir neçəsi heca vəznindədir.

"Məclisi-fəramuşan" şairlərinin əksəriyyəti M.M.Nəvvabın təsiri ilə yazıb. Odur ki, onların bir çoxunun şeirlərində ilahi, həm də dünyəvi eşqin tərənnümü kimi cəhətlər özünü göstərir. Bu şairlərdə həmçinin zəmanədən narazılıq, din xadimlərinin tənqidi kimi ictimai motivlərə də rast gəlinir. Ancaq bu, onların yaradıcılığı üçün o qədər də xarakterik olmayıb. Şairlər İslam ehkamlarını təhrif edən, dilində dua, qəlbində riya gəzdirən, din pərdəsi altında hər cür əməldən çıxan ruhaniləri tənqid edirdilər.

1910-cu ilədək fəaliyyət göstərən "Məclisi-fəramuşan" da Şuşanın ədəbi-mədəni həyatında mühüm rol oynayıb, ədəbi prosesin şaxələnməsinə öz töhfəsini verib.

**Savalan**

# "Əsl Cahandardır..."

## İsmayıl Şıxlı əvvəlcə onun baş rolda çəkilməsinə razılıq verməmişdi...



Çoxları onu daha çox Cahandar ağa obrazı ilə tanıyır. Ancaq aktyorun səhnə və ekran obrazlarını göz önünə gətirəndə zəngin yaradıcılıq tərcümeyi-halı ilə qarşılaşırsan. Bu il 100 yaşı tamam olan Xalq artisti Ələddin Abbasov Gəncə səhnəsində parlaq obrazlar yaratmaqla yanaşı, filmlərdə də aktyor məharətini ortaya qoyub, tamaşaçı rəğbəti qazanıb.

Ələddin Aslan oğlu Abbasov 5 may 1922-ci ildə Gəncə şəhərində dünyaya göz açıb. Erkən çağlardan səhnə sənətinə həvəs göstərir. Bu həvəsi 1938-ci ildə onu Gəncə Dövlət Dram Teatrı nəzdindəki aktyor studiyasına aparır. Burada görkəmli aktyor Məmmədrza Şeyxzamanovun rəhbəri olduğu dərnəkdə səhnə sənətinin sirlərinə yiyələnməyə başlayır. Dərnək üzvləri Cəfər Cabbarlının "1905-ci ildə" əsərindən parçalar hazırlayırlar və gənc Ələddin Abbasov da ilk dəfə səhnədə çıxış edir. O daha sonra Gəncə teatrında kütləvi səhnələrdə yer alır. 1939-cu ildən isə aktyor kimi həyatını teatrla bağlayır.

İki il sonra müharibə başlayır. 1941-ci ildə 19 yaşlı Ələddin böyük qardaşı ilə birgə cəbhəyə gedir. Döyüşlər səngiyəndə əsgərlər qarşısında döyüş yoldaşları ilə birgə səhnəciklər də göstərir. Otellonun monoloqunu, M.P.Vaqifin şeirlərini söyləyir. Müharibə başa çatandan sonra vətənə dönür. Qardaşı isə müharibədə həlak olur...

Ələddin Abbasovun səhnə fəaliyyəti ömrünün sonunadək Gəncə Dövlət Dram Teatrı ilə bağlı olub. Ali aktyorluq təhsili olmasa da, yaradıcılığı yüksək peşəkarlıqla səciyyələnib. Bu teatrın səhnəsində "Səyavuş", "Fərhad və Şirin", "Aydın", "Qaçaq Nəbi", "Otello" və s. tamaşalarda baş rollarda çıxış edib.

Aktyorun C.Cabbarlı dramaturgiyasına xüsusi sevgisi olub, əsərlərinin tamaşasında həmişə baş rolları oynayıb. Övladlarına isə görkəmli dramaturqun qəhrəmanlarının adını verib. Sənətkar xatirələrində deyib: "O vaxtlar teatrımızda İbrahim Həmzəyev adlı bir aktyor vardı. Bir dəfə tamaşa zamanı o, lojada əyləşir və mənim oyunuma diqqətlə tamaşa edir. Tamaşa başa çatandan sonra teatrın direktoruna yaxınlaşır və deyir: bu uşaq sərxoş vəziyyətdə teatra niyə buraxılıb? Direktor məni kabinetinə çağırdı və tənbeh etdi. Dedi ki, nə üçün içkili halda teatra gəlməsən? Dedim ki, mən heç içki içən deyiləm. İbrahim də kənardan söhbətimizə qulaq asırdı. Yaxın gəlib soruşdu ki, doğrudan, içkili deyilsən? And içdim ki, içməmişəm. Rolum bu cür idi, mən də elə oynadım. Məni qucaqlayaraq öpdü və dedi: "Ay sənin qadanı alım, nə yaxşı oynadın bu obrazın kefli vəziyyətini...".

Ələddin Abbasov səhnə uğurlarını ekranda da davam etdirməyi bacaran sənətkarlardandır. Çəkildiyi filmlərdə həyat verdiyi obrazların koloritli alınmasına çalışıb və buna nail olub. Xarakterik səs tembri, ifadəli sifət cizgiləri, cazibəli səhnə görkəmi olan aktyor "Dəli Kür" (Cahandar ağa), "Mən ki gözəl deyildim" (İmran), "Özgə vaxt" (Ata), "Qatır Məmməd" (Məşədi Göyüş), "Nizami" (Xaqani Şirvani), "Torpaq. Dəniz. Od. Səma" (Əli), "Qətl günü" (Zülfüqar) və s. bədii filmlərdə yaratdığı obrazlarla yaddaşlarda iz qoyub.

Sənətkarın ən məşhur ekran rolu isə, sözsüz ki, "Dəli Kür"də Cahandar ağa obrazıdır. Araşdırmalarda qeyd olunur ki, Ələddin Abbasov Məmmədrza Şeyxzamanov, Adil İsgəndərov və Mehdi Məmmədov kimi sənətkarlarla yaxın dost olub. Onun "Dəli Kür" filmində Cahandar ağa obrazına çəkilməsini də Adil İsgəndərov təklif edib. O, 1969-cu ildə Tiflisdə qastrolda olarkən eyni vaxta kinostudiyanın direktoru Adil İsgəndərov və kinorejissor Hüseyn Seyidzadədən teleqram alır. Onu təcili Bakıya çağırırlar. Kinostudiyada Ə.Abbasova deyirlər ki, bəs səni "Dəli Kür" filminin çəkilişləri üçün çağırıblar. Düşünmür ki, onu baş rola – Cahandar ağa roluna çəkərlər. Fikirləşir ki, bu yəqin sıradan bir obraz olar. Cahandar ağa roluna başqa altı aktyor sınaq çəkilişinə dəvət olunsa da, onun ifası qəbul olunur. Xalq yazıçısı İsmayıl Şıxlı əvvəlcə onun baş rolda çəkilməsinə razılıq verməsə də, sınaq çəkilişlərindən sonra "Əsl Cahandardır ki, durub..." demişdi. Beləliklə, "Dəli Kür"ün çəkilişləri üçün hazırlığa başlanılır. Rejissor aktyorlarla at çapmağı öyrənmək üçün cıdıra gedir. Hüseyn Seyidzadə fikirləşir ki, Ələddin Abbasov Cahandar ağa kimi at çapması üçün nə qədər vaxt lazım olacaq. O isə məşqçi gəlməmiş atın belinə qalxır. Çox çevik şəkildə atı bir neçə dəfə o tərəf-bu tərəfə çapır. Rejissor və tamaşaçılar onun at çapmasına təəccüb edirlər. Ələddin Abbasov gülə-gülə atdan düşür və deyir: "Mən Kəpəzin ətəyindən Murova, ordan Hacıkəndə, Samux meşələrinə qədər at çapa-çapa böyümüşəm...".



Səhnə və kinodakı əməyi yüksək qiymətləndirilən aktyor 1958-ci ildə "Əməkdar artist", 1971-ci ildə isə "Xalq artisti" fəxri adlarını alıb. 2003-cü ildə Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Sənətdə parlaq iz qoyan, tamaşaçı yaddaşında heykəlləşən görkəmli aktyor son dəfə Gəncə teatrında "Mahnı dağlarda qaldı" (İ.Əfəndiyev) tamaşasında Böyük bəy rolunda səhnəyə çıxıb. 13 iyul 2014-cü ildə vəfat edib, Gəncədə Fəxri xiyabanda dəfn olunub. 2013-cü ildə aktyor haqqında "Əfsanəyə çevrilən adam" qısametrajlı sənədli televiziya filmi çəkilib.

**S.Fərəcov**

# Azərbaycan musiqisini dünyaya tanıdan bəstəkar

## Firəngiz Əlizadə – 75



Dünya şöhrətli bəstəkar, dahi Qara Qarayev məktəbinin layiqli davamçısı, virtuoz pianoçu, dirijor Firəngiz Əlizadənin çoxşaxəli və məhsuldar yaradıcılığı, habelə geniş ictimai fəaliyyəti XXI əsr Azərbaycan professional musiqisinin dünya sənət aləminə inteqrasiyasında mühüm rol oynayır. Bəstəkarın əsərləri respublikamızın hüdudlarından uzaqlarda, bir sıra Avropa ölkələrində çox maraqla qarşılanır. Onun əsərlərinin hər yeni premyerası respublikamızın musiqi həyatında mühüm hadisəyə çevrilir.

Bəstəkarın beynəlxalq festivallarda səslənən əsərləri Azərbaycanın milli musiqi mədəniyyətini yüksək səviyyədə təmsil edir. O, Almaniya, Britaniya, ABŞ, Niderland, İsveç, Fransa, İtaliya, Polşa, Rusiya, Ukrayna və b. ölkələrdə keçirilən nüfuzlu festivallarda həm bəstəkar, həm pianoçu kimi uğurla çıxış edib, musiqisi geniş auditoriya tərəfindən böyük rəğbətlə qarşılanıb. Təsadüfi deyil ki, F.Əlizadə hələ 2000-ci ildə İsveçrənin "Luserne Musik Festwochen" beynəlxalq festivalının ilk qadın bəstəkar-rezidenti, 2001-ci ildə isə Almaniyanın Bonn şəhərinin "Bethovenhalle" orkestrinin bəstəkar-rezidenti seçilmişdi. Alman rejissorları onun haqqında "Azərbaycanlı maestro" adlı film çəkiblər.

2007-ci ildə Firəngiz Əlizadə UNESCO-nun "Sülh artisti" ("Artist for Peace") fəxri adına layiq görülüb. Respublikanın Xalq artisti, AMEA-nın müxbir üzvü, professor, "Şöhrət" və "Şərəf" ordenləri, habelə müxtəlif respublika və beynəlxalq təşkilatlar tərəfindən təqdim edilmiş mükafat və medallar – bütün bunlar bəstəkarın çoxşaxəli fəaliyyətinə verilən yüksək qiymətin bariz nümunələridir.

Bəstəkar müxtəlif janrlarda yazılmış əsərləri ilə daima musiqi ictimaiyyətinin diqqətini cəlb edir. Müasirlik və milli musiqi ənənələrinin parlaq təcəssümü, Şərq və Qərb musiqi mədəniyyətlərinin vəhdəti, hər bir janrda novatorluq prinsiplərinin yeni bədii təzahürü Firəngiz Əlizadə yaradıcılığına xas olan əsas cəhətlərdir. Əsərlərinin bədii obraz dairəsi də çox genişdir. Burada yüksək vətənpərvərlik hissləri, doğma torpağın zəngin təbiətinin vəsfi, milli musiqi ənənələrinin müasir kontekstdə ifadəsi, fəlsəfi düşüncələrin bədii inikası və s. özünəməxsus fərdi yaradıcılıq təxəyyülünün təcəssümünü yaradır.

Firəngiz Əlizadənin "İntizar", "Ağ atlı haqqında əfsanə", "Sənin adın Dənizdir" operaları, "Boş beşik", "Optikal İdentity", "Stadt-Qraniza" baletləri, "Al Kamandjaty" misteriyası, "Ölümsüzlüyə səyahət" oratoriyası, simfonik orkestr üçün "Nağıllar", "İthaf", kamera orkestri üçün "Dəniz", "İmpromtu-Crossings" əsərləri, instrumental konsertləri, "Üç akvarel" və "Yapon poeziyasından" vokal silsilələri, müxtəlif ansambl tərkibi üçün "Miraj", "İtirilmiş zamanın axtarışında", "Habilsayağı", "Muğamsayağı", "Eşq havası", "Dərviş", "Abşeron", "Oyan!" və b. əsərləri Azərbaycan musiqi mədəniyyəti xəzinəsinin parlaq səhifələrini təşkil edir.

"İntizar" operası (libretto müəllifi – Nərgiz Paşayeva) vətənpərvərlik mövzusunda yazılmış, öz zəngin musiqi dili, dramaturji konsepsiyası, orkestr üslubu və orijinal səhnə təcəssümü ilə XXI əsrin görkəmli opera əsərləri sırasında durur. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı Zəfərin carçısı olan operada uzun illər intizarını çəkdiyimiz torpaqlarımızın yağı düşmənin işğalından azad edilməsi ideyası öz parlaq bədii həllini tapıb.



Bəstəkarın vətənpərvərlik mövzusunda yazılmış son əsərlərindən biri də xor və simfonik orkestr üçün "Zəfər marşı"dır. Müəllifin Qarabağ Zəfəri münasibətilə öz sözlərinə bəstələdiyi bu əsərdə müzəffər Azərbaycan Ordusunun qüdrəti və Azərbaycan xalqının vətənpərvərlik ruhu tərənnüm olunur.

Vətən müharibəsində Qələbənin birinci ildönümü ərəfəsində, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı, Heydər Əliyev Sarayı, Azərbaycan Dövlət Akademik Filarmoniyasının birgə təşkilatçılığı ilə gerçəkləşən "Qarabağ Azərbaycandır!" adlı konsertin proqramında Firəngiz Əlizadənin xor və simfonik orkestr üçün "Zəfər marşı", habelə bir sıra müasir Azərbaycan bəstəkarlarının vətənpərvər ruhlu yeni simfonik və vokal-simfonik əsərləri Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor – Xalq artisti F.Kərimov), Azərbaycan Dövlət Xor Kapellasının (bədii rəhbər – Xalq artisti G.İmanova) və solistlərin ifasında uğurla səsləndi.

Firəngiz Əlizadənin mənəvi və əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən əsərləri Avropanın mötəbər konsert səhnələrində səslənir, məşhur kollektivlərin – "Kronos Quartet" (San-Fransisko), "Collegium novus" (Sürix), "Berliner Filarmoniker" (Berlin), "Tang" (Sinqapur), görkəmli musiqiçilərin – İvan Monigetti, Devid Qerinqas, Yo Yo Ma, Evelin Qlenni, Elizabet Mozer, Hilari Han və b. repertuarını bəzəyir. "Sənin adın Dənizdir" operası (Hyuston, ABŞ), "Optikal İdentity" baleti (Sinqapur), "Al Kamandjaty" misteriyası (Roma, İtaliya), xanəndə, flamenko ifaçısı və ansambl üçün "Mugflagamenco" (Amsterdam, Niderland), fortepiano, violonçel və kamera orkestri üçün "Dəniz" (Bern, İsveçrə), violonçel üçün "Oyan!" (Paris, Fransa) və s. əsərləri məhz xarici ölkələrin musiqi kollektivlərinin sifarişi ilə yazılıb və həmin əsərlərin premyeraları böyük triumfla keçərək geniş rezonans yaradıb.

Belə nümunələrdən biri də "Amsterdam Royal Concertgbouw"un sifarişi ilə bəstələnmiş "Nasimi Passion" (2017) əsəridir. Azərbaycanın böyük mütəfəkkiri İmadəddin Nəsiminin vəfatının 600 illiyinə həsr olunmuş, şairin qəzəlləri əsasında solist (bariton), xor və simfonik orkestr üçün yazılmış əsəri məşhur ingilis dirijoru Martin Brabbinsin idarəsi və həmyerlimiz, Almaniyanın Manheym Opera Teatrının solisti Əvəz Abdullanın iştirakı ilə Niderlandın Kral Simfonik Orkestri və xoru yüksək professional səviyyədə ifa edib. Müsəlman dünyasında bu janrda yazılmış ilk əsər olan "Nasimi Passion" Parisdə, UNESCO-nun qərargahında keçirilən yubiley tədbirində də uğurla səslənib, həmçinin 2019-cu ildə "Aga Khan Music Awards" mükafatına layiq görülüb.

Bu il bəstəkarın yubileyi münasibətilə Avropanın müxtəlif ölkələrində yeni əsərlərinin premyeraları keçirilir, səhnə əsərləri tamaşaya qoyulur.

Mart ayında Almaniyanın Maqdeburq şəhərində Firəngiz Əlizadənin simfonik orkestr üçün "Sommer-Eindruck" ("Yay təəssüratı") əsərinin premyerası böyük triumfla keçib. Dirijor Mixael Horstun rəhbərliyi altında "Mitteldeutsche Philharmonie Orchestra"nın təqdim etdiyi konsertdə klassik bəstəkarlar – F.Mendelson, F.Şubert və D.Şostakoviçin əsərləri ilə yanaşı səslənən əsər pandemiya fasiləsindən sonra bu məşhur kollektivin yenilənmiş repertuarına daxil edilərək tamaşaçıların böyük marağına səbəb olub. Bəstəkarın xüsusi olaraq bu orkestrin sifarişi ilə bəstələdiyi "Sommer-Eindruck" əsəri yeni konsert turnesi ilə il ərzində Almaniyanın bir sıra şəhərlərində ifa ediləcək.

Aprel ayında isə Londonun möhtəşəm "Pool" konsert zalında Firəngiz Əlizadənin simfonik orkestr üçün "Nizamki Cosmology" ("Nizami fəzası") əsərinin premyerası ukraynalı dirijor Kirill Karabitsin rəhbərliyi altında "Bournemouth Symphony Orchestra"nın (Böyük Britaniya) ifasında böyük triumfla keçərək, tamaşaçıların rəğbətini qazanıb. Dahi Azərbaycan şairi və mütəfəkkirinin 880 illiyi münasibətilə, xüsusi olaraq bu məşhur kollektivin sifarişi ilə yazılmış əsər Nizami dühasını vəsf edən təntənəli himn kimi səslənib. Konserti efirdə canlı yayımın sonunda ingilis jurnalist Bronte Larsen-Disney belə şərh edib: "Firəngiz Əlizadə musiqisinin kosmologiyası XII əsr poeziyası haqqında ənənəvi məfhumların çərçivəsini daha da genişləndirdi, burada kosmos haqqında, bəşəri və səmavi hadisələrin qarşılıqlı əlaqəsi haqqında, insan təfəkkürünün təkamülü haqqında müasir təsəvvürlər möhtəşəm və parlaq şəkildə öz bədii təcəssümünü tapıb...".

Qeyd etmək lazımdır ki, Avropada və Amerikada məşhur olan dirijor Kirill Karabits bu konsertdə "Şərqdən səslər" devizi altında zəmanəmizin üç görkəmli bəstəkarının əsərini – Q.Qarayevin "Yeddi gözəl" baletindən süitanı, D.Şostakoviçin 12 saylı simfoniyasını və öz dahi müəllimlərinin ənənələrini yaşadan F.Əlizadənin "Nizamki Cosmology" əsərini bir konsert proqramına daxil edərək, vahid ənənə və varislik xəttini davam etdirib.

Dünya şöhrətli bəstəkarımızın yubileyi respublikamızda da təntənə ilə qeyd ediləcək. İyun ayında müxtəlif konsert salonlarında yubileyə həsr olunmuş musiqi festivalı çərçivəsində silsilə tədbirlər keçiriləcək. Musiqisevərlər bir daha bəstəkarın füsunkar musiqisi ilə təmasda olmaq imkanı əldə edəcəklər.

Firəngiz xanım bəstəkarlıqla yanaşı, geniş ictimai fəaliyyəti ilə milli musiqi mədəniyyətimizin tərəqqisi yolunda əzmlə çalışır. 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının sədri seçilən Firəngiz Əlizadənin rəhbərliyi ilə milli musiqi mədəniyyətimizin inkişafına təkan verən nailiyyətlər qazanılıb. Artıq on beş ildir Bəstəkarlar İttifaqı bir sıra beynəlxalq səviyyəli musiqi layihələrinin (F.Əlizadənin baş redaktoru və koordinatoru olduğu, Heydər Əliyev Fondu tərəfindən nəşr edilən "Üzeyir dünyası", "Fikrət zirvəsi", "Muğam ensiklopediyası", "Əbədi imzalar" və b. layihələr) gerçəkləşməsində bilavasitə iştirak edir. Firəngiz xanım beynəlxalq səviyyəli musiqi festivallarının – Heydər Əliyev Fondunun təşkil etdiyi "Muğam aləmi" Beynəlxalq Muğam Festivalının bədii rəhbəri, Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə keçirilən Şəki "İpək Yolu" Beynəlxalq Musiqi Festivalının təsisçisi və bədii rəhbəridir.

Əlamətdar yubiley ərəfəsində öz möhtəşəm musiqisi ilə dünya xalqlarını sülhə və həmrəyliyə səsləyən bəstəkarımızın ünvanına söylənən təbriklərə qoşuluruq. Firəngiz xanımı səmimi qəlbdən təbrik edir, ona yeni-yeni yaradıcılıq zirvələri fəth etməyi arzulayırıq!

**Sevda Hüseynova**
**musiqişünas**

# Almaniyada keçirilən sərgi-festivalda ölkəmiz də təmsil olunub




30 aprel – Beynəlxalq Caz Günü bir çox ölkələrdə müxtəlif tədbir və layihələrlə qeyd olunub. Almaniyanın Bremen şəhərində keçirilən "Jazzahead" sərgi-festivalı təkcə bu ölkədə deyil, ümumilikdə Avropada caz musiqisi üzrə mühüm beynəlxalq platformadır.

28 aprel – 1 may tarixlərində gerçəkləşən "Jazzahead-2022" sərgi-festivalına dünyanın bir çox yerlərindən sənətçilər, caz həvəskarları qatılıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə bu il ölkəmiz də beynəlxalq caz bayramında təmsil olunub.

Festival-sərgidə iki istedadlı ifaçı – pianoçu Əfqan Rəsul və vokalçı Diana Hacıyeva çıxış edib. Peşəkar pianoçu, Montrö Caz Festivalının iştirakçısı Əfqan Rəsul və gənc vokalçı Diana Hacıyeva qısa müddət ərzində həm dinləyicilərin, həm də bu janrın peşəkar bilicilərinin sevdiyi duetə çevrilib. Qeyd edək ki, duet ilk dəfə "Bakı Caz Festivalı 2021"də səhnəyə çıxıb.

"Jazzahead-2022" çərçivəsində Bremen şəhərində "Deutche Jazz Preis" – Alman Caz Mükafatının təqdimat mərasimi də keçirilib. Mərasimdə tanınmış cazmen, Əməkdar artist İsfar Sarabski də iştirak edib. İ.Sarabskinin "Planet" albomu "İlin ən yaxşı xarici debüt albomu" nominasiyası üzrə təqdim olunub. Albom mükafata təqdim edilmiş yeni layihələr arasında 3 nominantdan biri olub.

## Xatirə təqvimi

4-8 may

### Azərbaycan

**4 may 1920** – Aşıq, şair Molla Cümə (1854-1920) vəfat edib. Şəki qəzasının Göynük mahalının Layisqi kəndində doğulub. Bəzi mənbələrə görə, aşıq Xalq Cümhuriyyətinin tərəfdarı olduğu üçün öldürülüb.

**4 may 1931** – Əməkdar incəsənət xadimi, rəssam Ağarəhim Cəbrayıl oğlu Əliyev (1931 – 24.11.2009) anadan olub. Sənədli və bədii filmlərin quruluşçu rəssamı olub, teatr tamaşalarına səhnə tərtibatı verib.

**5 may 1856** – Azərbaycanın ilk maarifçi qadınlarından biri, milli mətbuatın banisi Həsən bəy Zərdabinin ömür-gün yoldaşı Hənifə Məlikova-Abayeva (1856-1929) Şimali Qafqazın Nalçik şəhərində anadan olub. 1901-ci ildə Bakıda H.Z.Tağıyevin himayəsi altında fəaliyyətə başlayan Müsəlman qızlar məktəbinin direktoru olub.

**5 may 1866** – Yazıçı-dramaturq Eynəli bəy Çölübəy oğlu Sultanov (1866-1935) Naxçıvanda doğulub. Naxçıvanda "Müsəlman incəsənəti və dram cəmiyyəti" yaradıcılarından olub. 1883-cü ildə cəmiyyət Naxçıvanda ilk teatr tamaşasını ("Müsyö Jordan və dərviş Məstəli şah") səhnəyə qoyub.

**5 may 1892** – İstiqlal şairi Əhməd Cavad (Cavad Məhəmmədəli oğlu Axundzadə; 1892 – 13.10.1937) Şəmkir bölgəsinin Seyfəli kəndində doğulub. Dövlət himnimizin ("Azərbaycan marşı", 1918) sözlərinin müəllifidir. V.Şekspirin "Otello", "Romeo və Cülyetta" pyeslərini dilimizə çevirib. Repressiya qurbanıdır.

**5 may 1894** – Əməkdar artist Əhməd Anatollu (Əhməd Muxtar oğlu Səfərov; 1894 – 7.4.1973) Bakıda doğulub. Akademik Dram, Musiqili Komediya teatrlarının aktyoru olub.

**5 may 1899** – Əməkdar incəsənət xadimi, rəssam, qrafik Əmir Səhliəli oğlu Hacıyev (1899-1972) Şuşada anadan olub. Azərbaycan yazıçılarının bir çox əsərlərinə illüstrasiyalar çəkib.

**5 may 1905** – Tanınmış ədəbiyyatşünas, şair, tərcüməçi Əkrəm Cəfər (Əkrəm Səftər oğlu Cəfərov; 1905 – 18.8.1991) İsmayıllı rayonunun Lahıc kəndində anadan olub.

**5 may 1908** – İlk azərbaycanlı qadın rejissor Qəmər Əliqulu qızı Salamzadə (1908-1994) anadan olub. Şair Əliqulu Qəmküsarın qızıdır. "Səbuhi" (1941) filminin rejissor assistenti olub.

**5 may 1910** – SSRİ Xalq artisti, rejissor, aktyor Ədil Rza oğlu İsgəndərov (1910 – 18.9.1978) anadan olub. Milli Dram Teatrının baş rejissoru, "Azərbaycanfilm"in direktoru işləyib. "Uzaq sahillərdə", "Qanun naminə", "Dərviş Parisi partladır", "Axırıncı aşırım" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb. "Əhməd haradadır?" filminə quruluş verib.

**5 may 1912** – Nasir, tərcüməçi Cəfər Bağır (Cəfər Səfər oğlu Bağırov; 1912 - 17.4.1983) Ordubad rayonunun Dəstə kəndində anadan olub.

**5 may 1918** – Görkəmli ədəbiyyatşünas alim, Əməkdar elm xadimi Mirəli Seyidov (1918 – 26.4.1992) İrəvanda doğulub. "Azərbaycan mifik təfəkkürünün qaynaqları", "Azərbaycan xalqının soykökünü düşünərkən" və s. kitabların müəllifidir.

**5 may 1920** – Rəssam, Əməkdar incəsənət xadimi Əbdülxalıq (Əbdülxalıq Əbdüəli oğlu Rzaquliyev; 1920 – 30.9.1988) Bakıda anadan olub.

**5 may 1920** – Şərqşünas, filologiya elmləri doktoru, Əməkdar elm xadimi Şamil Allahverdi oğlu Cəmşidov (1920 – 8.12.2008) Ağcabədi rayonunda anadan olub.

**5 may 1922** – Xalq artisti Ələddin Aslan oğlu Abbasov (1922 – 13.7.2014) Gəncədə doğulub. 1939-cu ildən Gəncə Dram Teatrında çalışıb. "Dəli Kür", "Qatır Məmməd", "Nizami", "Qətl günü" və s. filmlərdə çəkilib.

**5 may 1927** – Əməkdar incəsənət xadimi, qrafik-rəssam Bəyim Əzizbala qızı Hacızadə (1927-2017) Bakıda doğulub. Müxtəlif mövzularda linoqravüralar, "Xocalı" və s. əsərlərin müəllifidir.

**5 may 1930** – Xanəndə, Xalq artisti Yaqub Məhəmməd oğlu Məmmədov (1930 – 5.7.2002) Ağcabədi rayonunda doğulub. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

**5 may 1930** – Tanınmış xanəndə Nəriman Mövsüm oğlu Əliyev (1930 – 28.4.1998) Bakıda doğulub. Bir çox məşhur muğam ifaçılarının ustad-müəllimi olub.

**5 may 2021** – Xalq şairi, Dövlət mükafatı laureatı Fikrət Göyüş oğlu Qoca (25.8.1935 – 2021) vəfat edib. Azərbaycan Yazıçılar Birliyinin birinci katibi olub.

**6 may 1900** – Xalq artisti Aleksandra Lavrentyevna Suvirova (1900-1962) Moskvada doğulub. Dövlət Rus Dram Teatrının aktrisası (1927-1959) olub.

**6 may 1942** – Əməkdar artist, diktor Hicran Soltan oğlu Hüseynov (1942-2013) Qəbələ rayonunda anadan olub. 1971-ci ildən Azərbaycan Televiziyasında fəaliyyət göstərib.

**7 may 1926** – Əməkdar rəssam Cəbrayıl Əlimuxtar oğlu Əzimov (1926 – 10.7.1969) Bakıda doğulub. "O olmasın, bu olsun" (Nadir Zeynalovla birgə), "Qızmar günəş altında", "Qanun naminə" və s. filmlərin quruluşçu rəssamı olub.

**7 may 1998** – Tanınmış kinorejissor, operator, Xalq artisti Muxtar Baba oğlu Dadaşov (11.9.1913 – 1998) vəfat edib.

**7 may 2021** – Xalq şairi Musa Səfiməmməd oğlu Yaqub (10.5.1937 – 2021) vəfat edib. "Ruhumla söhbət", "Dövrün dəyirmanı" və s. kitabların müəllifidir.

**7 may 2021** – Xalq artisti, aktyor Arif Əli oğlu Quliyev (16.5.1950 – 2021) vəfat edib.

**8 may 1910** – Tanınmış ədəbiyyatşünas, şair, tərcüməçi, professor Cəfər Xəndan (Cəfər Zeynal oğlu Hacıyev; 1910 – 10.8.1961) İrəvan şəhərində anadan olub.

**8 may 1919** – SSRİ Xalq artisti, görkəmli bəstəkar, pedaqoq Soltan İsmayıl oğlu Hacıbəyov (1919 – 19.9.1974) Şuşada doğulub. "Gülşən" baleti, "Karvan" simfonik lövhəsi, "Qızılgül" musiqili komediyası, uşaqlar üçün "İsgəndər və çoban" operası və s. əsərlərin müəllifidir. Azərbaycan Dövlət Konservatoriyasının rektoru olub.

**8 may 1930** – Ədəbiyyatşünas, professor Qara Mustafa oğlu Namazov (1930 – 11.5.2016) Ermənistan SSR İcevan rayonunun Əmirxeyir kəndində doğulub. Aşıq şeirinin tarixinə dair tədqiqat əsərlərinin müəllifidir.

### Dünya

**4 may 1929** – İngilis aktrisası Odri Hepbern (Odri Ketlin Raston; 1929-1993) anadan olub. Filmləri: "Roma tətilləri" (şahzadə Anna), "Hərb və sülh" (Nataşa Rostova) və s.

**5 may 1846** – Polyak yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1905) laureatı Henrik Senkeviç (1846-1916) anadan olub. Əsərləri: "Quo vadis" ("Hara gedirsən?"), "Girdab", "Polonetskilər ailəsi" və s.

**6 may 1856** – Dünya ədəbiyyatı və mədəniyyətində iz qoymuş psixoanaliz nəzəriyyəsinin banisi, Avstriya alimi Ziqmund Freyd (Sigmund Freud; 1856-1939) anadan olub.

**6 may 1867** – Polyak yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1924) laureatı Vladislav Reymont (1867-1925) anadan olub. "Kişilər" romanı, "1794" tarixi trilogiyası və s. əsərlərin müəllifidir.

**6 may 1922** – SSRİ Xalq artisti Vladimir Abramoviç Etuş (1922 – 9.3.2019) anadan olub.

**7 may 1833** – Alman bəstəkarı, pianoçu və dirijoru Johannes Brahms (1833-1897) anadan olub. Əsərləri: "Alman rekviyemi", "Macar rəqsləri" və s.

**7 may 1840** – Rus bəstəkarı Pyotr İliç Çaykovski (1840-1893) anadan olub. 10 operanın ("Yevgeni Onegin", "Orleanlı qız", "Qaratoxmaq qadın" və s.), 3 baletin ("Qu gölü", "Yatmış gözəl", "Şelkunçik"), simfoniyaların müəllifidir.

**7 may 1861** – Hind şairi, yazıçı, filosof, bəstəkar, ədəbiyyat üzrə Nobel mükafatı (1913) laureatı Rabindranat Taqor (Rabindranath Tagore; 1861 – 7.8.1941) Kəlküttədə doğulub.

**7 may 1953** – Türkiyə müğənnisi, bəstəkar Müslüm Gursəs (1953 – 3.3.2013) Şanlıurfada doğulub.

**8 may 1906** – İtaliya kinorejissoru, neorealizmin təmsilçisi Roberto Rosselini (1906-1977) anadan olub. Filmləri: "Roma, açıq şəhər", "Almaniya, sıfırıncı il" və s.

**Hazırladı: Vüqar Orxan**

# Rəqqaslarımız Özbəkistanda keçirilən festivalda ikinci yerə layiq görülüblər

Xəbər verdiyimiz kimi, Özbəkistanın Xivə şəhərində keçirilən "Ləzgi" beynəlxalq rəqs festivalında ölkəmiz də təmsil olunub. Festivalda Fikrət Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının direktoru, Əməkdar mədəniyyət işçisi Elçin Abbasovun rəhbərliyi ilə rəqs qrupu iştirak edib.

Qeyd edək ki, Özbəkistanın "Xarəzm ləzgi rəqsi" 2019-cu ildə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Özbəkistan Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə ilk dəfə gerçəkləşən festivala UNESCO dəstək verib.

26-30 aprel tarixində Xivə şəhərindəki "İçan-kala" kompleksində keçirilən "Ləzgi" beynəlxalq rəqs festivalının qala-konsertində qaliblər elan olunub.

Özbəkistanın nümayəndəsi Dilnoza Artıkova baş mükafatı – Qran-prini qazanıb. Özbəkistan, Qazaxıstan və Bolqarıstan kollektivləri birinci dərəcəli diplomla təltif olunublar.

Azərbaycan, Özbəkistan, Hindistan və Tacikistan kollektivlərinə ikinci dərəcəli diplom təqdim olunub. Azərbaycan rəqqasları "Ən gözəl kollektiv rəqs" nominasiyasında mükafata layiq görülüblər. Üçüncü yeri Türkiyə və Qırğızıstan rəqqasları tutub.



Dövlət Mahnı və Rəqs Ansamblının heyəti müsabiqədə "Cəngi" (solistlər Əməkdar artistlər Elnur Süleymanov və Nigar Şahmuradova), "Yüzbiri" (solist Əməkdar artist Günel Şeyxova), "Ay ləli" (solist Əməkdar artist Viktoriya Şahmuradova) və "Yallı" xalq rəqslərini ifa ediblər. Ansamblın baletmeysteri Əməkdar artist Ceyhun Qubadovdur.

Xatırladaq ki, dünyanın 30 ölkəsindən rəqqas, musiqiçi, musiqi nəzəriyyəçisi və xoreoqrafın qatıldığı festival çərçivəsində beynəlxalq konfrans, sərgilər, ustad dərsləri təşkil edilib.

Özbəkistan Mədəniyyət Nazirliyinin dəvəti ilə festivalda qonaq qismində Beynəlxalq Muğam Mərkəzinin (BMM) solistləri – Əməkdar artistlər Sahib Paşazadə (tar), Toğrul Əsədullayev (kamança), Kamran Kərimov (nağara) və xanəndələr Kamilə Nəbiyeva, Mirələm Mirələmov da iştirak ediblər. Onların festival çərçivəsində çıxışları maraqla qarşılanıb. BMM solistlərinin festivalın açılışından əvvəl 40 dəqiqəlik xüsusi proqramla çıxış etməsi alqışlarla müşayiət olunub.

BMM-in solistləri Özbəkistanın Muğam Sənəti Kollecində ustad dərsləri də keçiblər. Vaxtilə Azərbaycanda tar sənəti üzrə təhsil alan özbək ifaçı Behcan Ağabəy BMM-in solistlərinin konsertlərində nümayəndə heyətimizi dəstəkləyərək onlara yardımçı olub.

Qeyd edək ki, Özbəkistanın mədəniyyət naziri Azərbaycan nümayəndə heyəti ilə görüşərək Beynəlxalq Muğam Mərkəzinin rəhbərliyinə təşəkkürünü bildirib.

# Vaşinqtondakı ABŞ-Azərbaycan Ticarət Palatasında Hüseyn Cavidin barelyefi qoyulub



Mədəniyyət naziri Anar Kərimovun Birləşmiş Ştatlara səfəri gedişində Vaşinqtondakı ABŞ-Azərbaycan Ticarət Palatasında (The U.S.-Azerbaijan Chamber of Commerce–USACC) böyük şair Hüseyn Cavidin barelyefinin açılışı olub.

Abidə Azərbaycanın Mədəniyyət Nazirliyi tərəfindən USACC-a hədiyyə edilib. Mərasimdə nazir Anar Kərimov, Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim çıxış ediblər.

Anar Kərimov bu barədə sosial şəbəkə səhifəsində də paylaşım edib. "Azərbaycan xalqının görkəmli şair-dramaturqu Hüseyn Cavidin 140 illik yubileyi münasibətilə onun barelyefini ABŞ-Azərbaycan Ticarət Palatasına hədiyyə etdik və H.Cavidin irsinin həm ölkəmizdə, həm də ABŞ-da öyrənilməsinin vacibliyindən danışdıq", – deyə paylaşımda bildirilir.

# "Fərqli olaraq"

## Berlində Leyla Əzimbəyovanın sərgisi

Berlindəki "QGallery" incəsənət salonunda Azərbaycan Rəssamlar İttifaqının üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Leyla Əzimbəyovanın "Fərqli olaraq" adlı fərdi yaradıcılıq sərgisi açılıb.



Sərgi Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və "QGallery Baku"nun dəstəyi ilə təşkil olunub.

Sərgidə çıxış edənlər Leyla Əzimbəyovanın yaradıcılığından söz açıb, rəssamı əlamətdar hadisə münasibətilə təbrik ediblər.

Sərgidə rəssamın portret, peyzaj, natürmort janrlarında çəkdiyi 36 əsəri nümayiş etdirilir. Əsərlərdə həyat eşqi, insan və təbiətə doğma münasibət diqqəti daha çox cəlb edir.

Leyla Əzimbəyovanın sərgisi ilə paralel olaraq qalereyada Berlində yaşayan rəssam Nizakət Sinanovskayanın da əsərləri təqdim olunur.

Sərgi mayın 12-dək davam edəcək.

# "Dostluq körpüsü"

## Daşkənddə "Qarabağ" muğam qrupunun konserti



Daşkənddəki "Türküstan" Sənət Sarayında Beynəlxalq Muğam Mərkəzinin (BMM) "Qarabağ" muğam qrupunun konserti olub. "Dostluq körpüsü" adlı konsert Özbəkistan Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşib.

Konsertdən əvvəl "Qarabağ" muğam qrupunun rəhbəri, Xalq artisti Mənsum İbrahimov, BMM direktorunun müavini Riyad Quliyev, Özbəkistan Milli Muğam Mərkəzinin baş direktoru, professor Saibjon Beqmatov, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov, Yunus Rəcəbi adına Özbəkistan Milli Musiqi Sənəti İnstitutunun prorektoru Azimjon Zakirov ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələrdən bəhs ediblər.

Konsert proqramında Xalq artisti Mənsum İbrahimov Azərbaycan muğamlarını, xalq mahnılarını ifa edib. Sonra Özbəkistanın tanınmış müğənnisi Yulduz Turdiyeva səhnəyə dəvət olunub. Onlar birlikdə bir neçə mahnı, o cümlədən "Qarabağ şikəstəsi"ni oxuyublar. İfaçıları tarda Xalq artisti Elçin Həşimov, kamançada Əməkdar artist Elnur Əhmədov və nağarada Vüsal Bayramov müşayiət ediblər.

Konsertin sonunda ifaçılarımıza özbək milli geyimi – çapan hədiyyə olunub.

# Kəlağayı: festivaldan qiyafəmizə

Uzun illərin vərdişidir: mayın 1-də çox adam evdə otura bilmir. İllah da ki, hava gözəl olanda. Budəfəki 1 may isə bir neçə səbəbdən əsl gəzmək, ünsiyyət məqamı idi.





Bakıda çox xoş, mülayim meh əsən əsl yaz havası var idi.

Həm bazar günü idi, həm də Ramazan bayramının ərəfəsi.

Üstəlik, iki ildən bəri davam edən, açıq havada birtəhər dözüləsi, amma qapalı məkanda adamın nəfəsini tıncıxdıran tibbi maska taxmaq məcburiyyətinin aradan qaldırıldığı gün.

…Bir də ən vacibi. Əl işləri ilə məşğul olan həvəskarların, dekorativ-tətbiqi sənət nümunələri yaradan peşəkarların, "Azərbaycanın əl işi ustaları" qrupunun pandemiyadan sonra növbəti sərgisi bu günə təyin olunmuşdu. Deməli, yenə də ən müxtəlif sahələrdə çalışan qabiliyyət sahibləri, ən sadədən ta lap mürəkkəbinədək əl əməyi, göz nuru olan əl işləri ilə növbəti tanışlıq baş tutacaqdı.

Baş tutdu da! Saat 12:00-da "Passaje-1901" məkanında başlayan tədbirə ziyarətçilərin marağının böyük olduğuna şahidlik etdik. İkiillik fasilədən sonra bir araya gələn iştirakçıların da çox sevindiyi görünürdü. Qrupun sayca 36-cı sərgisi olsa da, bu sərgi əvvəlkilərdən fərqlənirdi. Çünki təşkilatçılar onu "Kəlağayı festivalı" kimi düşünmüşdülər...

Geniş salona daxil olanda kəlağayılı qadınların çoxluğu diqqətimizi cəlb etdi. Əksəriyyəti xanımlar olan iştirakçılar bu milli baş örtüyümüzə bürünmüşdülər. Onu klassik tərzdə başına örtən kim, xüsusi dizaynla boynuna dolayıb, çiynindən sallayan kim. Şux rənglərin bolluğu, kəlağayı naxışlarının şahı olan buta (sonra öyrənəcəyik ki, buta ornamenti kəlağayıçılıqda elə şah adlanır) naxışı hər yerdə idi: əl işi olan toxunma oyuncaqlarda, bişirilmə sabunların formasında və səthində, vitraj rəngləməli qablarda, milli geyim nümunələrində, muncuq, biser işləməli, polimer gildən düzəldilmiş bəzək əşyalarında, zərgərlik nümunələrində.

Qələbəliyin içində birtəhər əsas təşkilatçılardan Ella Bağırovanı tapırıq. Ondan sərgi-festival barədə məlumat alırıq:

– Bakıda ilk dəfə yalnız kəlağayıya həsr edilmiş festival keçirilir. Bu dəfə iştirakçılarımızın sayı da çoxdur. Sevindirici haldır ki, bölgələrimizdən də festivala çoxlu qoşulanlar var. Üstəlik, gənclərin dekorativ-tətbiqi sənət sahələrinə maraq göstərməsi, daha fərqli, daha kreativ əl işləri ilə sərgiyə qatılması bizi çox sevindirir. Deməli, sənətdə ardıcıllıq, nəsildən-nəslə ötürmə ənənəsi yaşayır.

Digər təşkilatçı Leyla Həsən söhbətə qoşulur:

– İki il idi evə qapanmışdıq, belə sərgilərdə görüşmürdük. Düzdür, qrup üzvləri bekar dayanmırdılar, sosial şəbəkələrdə öz əl işlərini paylaşır, internet üzərindən çalışırdılar. Amma nə qədər olsa da, heç bir virtual münasibət canlı ünsiyyətin yerini vermir. Niyyət və bacarığına görə birləşən insanların bir-birinin yaradıcılığına bələd olması, şəxsən tanıması, bir-birindən bəhrələnməsi böyük mənəvi sərvətdir.

Əgər ziyarət etdiyimiz satış-sərginin baş qəhrəmanı, əsas mövzusu kəlağayıdırsa, elə isə niyə onunla şəxsən tanış olmuruq? Leyla xanım kəlağayı bilicisi, bu sənətin dirçəlişində əməyi olan xanımla bizi salonun tən ortasındakı stend-vitrinə yönləndirir.

Basqaldakı "Cahangir" kəlağayı emalatxanasının yaradıcılarından olan, kəlağayı konsepsiyasının müəllifi, professor Rəna İbrahimbəyova ilə tanış oluruq. Rəna xanım böyük istehsal sahəsini – barama qurdu yetişdirməkdən ta naxış basmayadək prosesi o qədər gözəl bilir, bu barədə o qədər böyük sevgi ilə danışır ki, onunla uzun söhbətimizi sərgi reportajının içində əritmək istəmirik. Rəna xanımın kəlağayı heyranlığı ilə söylədikləri ayrıca müsahibənin mövzusudur.

2014-cü ildə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş kəlağayı sənətinə və ona baş örtüyü, qiyafəni tamamlayan aksesuar kimi marağın artması isə sevindirici haldır.

Bu sərgidə kəlağayı naxışlarının daha bir maraqlı tətbiq sahəsinə rast gəldik. İpək parçaya batik (rəngləmə) üsulu ilə milli xalça naxışları salan gənc rəssam Diləfruz Bağırova da sərgi iştirakçısıdır. Hazır ipək şərflərin üstündə incəliklə salınmış milli naxışlar, tematik şəkillər milliliklə uzaq İndoneziyadan dünyaya yayılmış batik sənətinin üzvi vəhdətinə sübutdur.

… Festival davam edir. İmprovizə səhnədə rəqs qrupunun çıxışı, səsucaldıcıdan ətrafa yayılan ürəkaçan musiqi sədaları, əl işi olan, çoxu bir neçə, bəzən isə hətta yalnız nüsxə olan eksklüziv bəzək və zinət əşyaları, interyer dekorları öz sahibini tapır. Kəlağayı naxışlama, ebru sənəti, rəsm, bijuteriya üzrə ustad dərslərinə qatılan uşaq və yeniyetmələrin simasından isə "mən bacardım" qətiyyətinin qələbə sevinci yağır. Kim bilir, bəlkə də kəlağayı festivalında öz dekorativ sənət bacarığını kəşf edənlərdən kimsə bir neçə ildən sonra bu ənənəvi sərgilərin ən fəal iştirakçısı olacaq?

…Sərgidən çıxanlara diqqət yetirirəm. Düzdür, kiminsə bazarlığına nəzər salmaq etik sayılmaz. Amma sərgi ovqatını evinə daşıyan xanımların bir qədər əvvəl aldıqları müxtəlif rəngli, klassik və müasir naxışlı kəlağayını cığarasından çıxarıb başlarına örtməsi, boyunlarına dolaması göz oxşayır. Deməli, festival öz məqsədinə yetib. Nənələrimizin ismət, ləyaqət rəmzi kəlağayı yenə bizimlədir.

**Gülcahan Mirməmməd**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 147 il əvvəl...

**7 may 1875-ci ildə** Rusiya ilə Yaponiya arasında ərazi mübadiləsi haqqında saziş imzalanıb. Saziş tərəflərin Kuril adaları və Saxalinə iddialarını tənzimləyirdi. Rusiya Kuril adalarını Yaponiyaya güzəştə gedib. Əvəzində Yaponiya Saxalin adasına iddialardan əl çəkib.

### 141 il əvvəl...

**6 may 1881-ci ildə** Mərkəzi Asiyadakı Axal-Təkə torpaqları (indiki Türkmənistanın bir hissəsi) Rusiyaya birləşdirilib.

### 107 il əvvəl...

**7 may 1915-ci ildə** Birinci Dünya müharibəsi gedişində Almaniya hərbi dəniz qüvvələri ilk dəfə sualtı qayıqla mülki sərnişin gəmisinə hücum ediblər. Nyu-York-Liverpul reysi üzrə hərəkət edən Britaniyaya məxsus "Luzitan" gəmisinin İrlandiya yaxınlığında batırılması nəticəsində 1200 nəfər, o cümlədən Britaniyanın hərbi naziri Lord Kitçener həlak olmuşdu.

### 103 il əvvəl...

**5 may 1919-cu ildə** İsveçrədə Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Liqası təsis edilib. Hazırda Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası adı altında fəaliyyət göstərir. Mənzil-qərargahı Cenevrə şəhərindədir.

### 102 il əvvəl...

**5 may 1920-ci ildə** Azərbaycanda bolşevik hökuməti – Müvəqqəti İnqilab Komitəsi bütün xan, bəy və vəqf torpaqlarının müsadirə olunaraq əvəzi ödənilmədən kəndlilərin istifadəsinə verilməsi barədə qərar qəbul edib. Üstündən bir neçə il ötəndən sonra həmin torpaqlar kəndlilərdən zorla geri alınaraq kolxoz təsərrüfatlarına verildi.

### 101 il əvvəl...

**6 may 1921-ci ildə** I Ümumazərbaycan sovetlər qurultayı işə başlayıb. Qurultayda Azərbaycan SSR-nin ilk Konstitusiyası qəbul olunub. Müvəqqəti İnqilab Komitəsi və yerlərdəki inqilab və yoxsul komitələri ləğv edilib, ali qanunverici orqan olaraq Mərkəzi İcraiyyə Komitəsi (MİK) və yerli sovetlər yaradılıb. 1921-1937-ci illərdə Ümumazərbaycan sovetlərinin 9 qurultayı keçirildi və 1938-ci ildə bu qurumu Ali Sovet əvəzlədi.

### 77 il əvvəl...

**8 may 1945-ci ildə** faşist Almaniyasının qeyd-şərtsiz kapitulyasiyasına dair akt imzalanıb. Berlin yaxınlığındakı Karlsxort şəhərciyində yerli vaxtla saat 22:43-də imzalanan akta Almaniya tərəfdən Vermaxtın (alman ordusunun) baş qərargah rəisi general-feldmarşal V.Keytel, Almaniyanın hərbi dəniz qüvvələrinin baş komandanı fon Frideburq, hava qüvvələrinin komandanı general-polkovnik Q.Ştumpf imza atmışdı. SSRİ tərəfdən sənədi marşal G.Jukov, müttəfiqlər adından Britaniyanın aviasiya marşalı A.Tedder imzalamışdı. Aktın imzalanması Moskva vaxtı ilə mayın 9-na düşdüyündən SSRİ-də Qələbə Günü 9 may elan olundu. Avropada isə faşizm üzərində qələbə mayın 8-də qeyd edilir.

### 30 il əvvəl...

**8 may 1992-ci ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Şuşa şəhərini işğal ediblər. Şuşanın işğalı həmin dövrdə respublikadakı faktiki hakimiyyətsizliyin, ordu hissələrinin siyasi oyunlara cəlb edilməsinin nəticəsi idi. Ermənilər Şuşanın işğalı ilə Dağlıq Qarabağa nəzarəti tamamilə ələ keçirdilər, Azərbaycanın bölgədə mühüm strateji mövqeyi əldən verməsi sonrakı itkilərə zəmin yaratdı. 28 il 6 ay işğal altında qalan Şuşa şəhəri 2020-ci ilin 44 günlük Vətən müharibəsində, noyabrın 8-də müzəffər Azərbaycan Ordusu tərəfindən azad edildi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1264
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641